# AĞILSIZ QURANI NECƏ ŞƏRH EDƏR?

ADNAN OKTAR - HARUN YƏHYA

# MÜNDƏRİCAT


**YARADILIŞ HƏQİQƏTİ**

**GİRİŞ**

**QURANI YANLIŞ ŞƏRH ETMƏNİN SƏBƏBLƏRİ**

Qərəzlilik, pis niyyətlilik və səmimiyyətsizlik

Mütəşabih ayələrlə möhkəm ayələri qarışdırmaq

Bədiüzzaman Səid Nursinin mütəşabih ayə və hədislərlə əlaqədar şərhləri

Elmalılı Hamdi Yazırın mütəşabih ayə və hədislərlə əlaqədar şərhləri

Quranı şərh edə bilməmək

Ərəbcə bilməmək

Allah qatından bir ağıl və anlayışın verilməməsi

Fikirləşməmək

Qürur və təkəbbür

Quranı, Qurana və sünnəyə uyğun olmayan bidət və xurafatlarla

şərh etməyə çalışmaq

Quranın elmi ayələrini qavramamaq

İçində yaşadığı quruluşun səhv meyarlarına görə Quranı şərh etmək

**QURANI YANLIŞ ŞƏRH ETMƏ NÜMUNƏLƏRİ**

Cənnətdə şərab içilməsi ilə əlaqədar ayələri səhv başa düşmək

Şərab mövzusu ilə əlaqədar bir başqa yanlış şərh etmə

"Donuz əti bugünkü sağlamlıq şərtlərində yeyilə bilər" yanılması

Hekayələrdəki hikmətləri başa düşməmək

Quranı digər ilahi kitabların oxşarı zənn etmə yanılması

Qurandakı elmi həqiqətlərin qədim mədəniyyətlərin məlumatlarından tərtib olunduğu

yanılması

Quran ərəblərə endirilmişdir yanılması

Allahın öz zatı üçün “biz” xitabından istifadə etməsini səhv şərh etmək

Quranda verilən nümunələri başa düşməmək

Qurandakı təkrarları başa düşməmək

Quranın üslubunu başa düşməmək

Altı gündə yaradılış mövzusu

“Haman” adı haqqındakı ağıldankənar fərziyyələr

Nuh tufanı haqqındakı ağıldankənar fərziyyələr

SON SÖZ

TƏKAMÜL YANILMASI

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib

edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Quran, aləmlərin Rəbbi, sonsuz elm və güc sahibi olan Allahdan insanlara bir rəhmət olaraq endirilmişdir. Allah insanlara bir kitab göndərməklə onlara lütf etmişdir. Allahın bu lütfünə səmimiyyət, minnətdarlıq və şükür ilə cavab verənlər bu davranışlarının faydasını yenə özləri görərlər. Quranı başa düşər, iman gətirər, ona tabe olar və Allahın rəhmətini qazanarlar. Dünyada da, axirətdə də Allahdan gözəl bir qarşılıqla mükafatlandırılarlar. Bunun əksinə, qərəzli və düşməncə bir rəftarla Qurana yaxınlaşanlar isə bunun zərərini yenə özləri görərlər. Quranı qavraya bilməz, ondan faydalana bilməz, dünyada və axirətdə ziyana uğrayarlar. Ancaq nə Qurana, nə də İslama bir zərər verə bilməzlər.

Quran, hər insanın asanlıqla başa düşə biləcəyi bir kitab olaraq endirilmişdir. Allah bir ayəsində, **"Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, köksldərdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir". (Yunis surəsi, 57)** deyə buyurur. Bu ayədən də aydın olduğu kimi Allaha iman gətirən və vicdanına uyan hər insan Quran ayələrindən öyüd-nəsihət ala bilər, ayələrdəki əmrləri ən gözəl şəkildə yerinə yetirə bilər.

Ancaq nəfsinə uyan, Allahın gücünü təqdir edə bilməyən, axirət mövzusunda şübhə içində olan insanlar, ayələri də öz səhv məntiqləri istiqamətində yanlış şərh edərlər. Allah bir ayəsində Quranda öyüd-nəsihət ala bilməyən bu insanların vəziyyətini belə xəbər vermişdir:

**And olsun, Biz bu Quranda öyüd-nəsihət alsınlar deyə müxtəlif şərhlər etdik. Halbuki bu, onların daha da uzaqlaşmasını artırır. (İsra surəsi, 41)**

Bura qədər izah edilənlərdən başa düşüldüyü kimi Quranı düzgün anlamaq səmimi olaraq iman gətirməklə mümkündür. Allah Quranı, iman gətirib dərk edən qullarının qavrayıb öyüd ala biləcəyi açıq-aşkar bir Kitab olaraq endirmişdir.

İnsanın imanı artdıqca ağlı, səmimiyyəti və Allah qorxusu da eyni dərəcədə artar, bu səbəbdən Quran ayələrindəki incəlikləri və sirləri daha yaxşı qavrayar.

Hələ iman gətirməmiş bir insan da, ön mühakimə yürütmədən, pis niyyət daşımadan səmimi bir vicdanla Qurana yaxınlaşdığı təqdirdə, onun ilahi bir kitab olduğunu asanlıqla qavrayar və iman edər. Allahın ayələri açıq-aşkar olduğu üçün dərhal onları tətbiq edər. İman gətirdikdən sonra isə imanının dərinliyi, duası və elmi ölçüsündə Quranın sirləri və incəlikləri özünə aydın olar.

İman gətirməyən, Allah qorxusuna sahib olmayan kəslər isə Quranı doğru qavraya bilməzlər. Başa düşdüklərini zənn etdikləri mövzuları isə səhv başa düşərlər. Açıq və dəqiq ifadələri öz aləmlərində ziddiyyətli hesab edərlər. Bu cür kəslər nə qədər ağıllı, nə qədər

məlumatlı və nə qədər mədəni olsalar belə, Quranı nə qədər istəyirlərsə tədqiq etsinlər Uca Rəbbimiz Allaha iman gətirmədikləri üçün ağıllarını işlətmək qabiliyyətindən məhrumdurlar. Məhz buna görə Quranı başa düşə bilməzlər.

Qurana qarşı, öz aləmlərində bəzi etirazlar edən adamların irəli sürdükləri iddialar tədqiq edildiyində, bunların əslində əhəmiyyətli bir anlayış və məntiq pozğunluğu olduğu aydın olar. Bəzən bir ibtidai məktəb uşağının belə açıq və asan şəkildə qavraya biləcəyi ayələri, nəfslərinə uyan bəzi kəslər öz zəif ağıllarına görə ziddiyyətli və anlaşılmaz zənn edərlər. Halbuki, Quranda heç bir ziddiyyət yoxdur. Allah Quranın bir çox ayəsində inkar edənlərin Quranda bildirilən nümunələr üçün, "Bu məsəllə Allah nə demək istədi?" deyərək çaşıb qaldıqlarını, bu nümunələri başa düşə bilmədiklərini xəbər vermişdir.

Həqiqətən də, Quranda xəbər verildiyi kimi inkar edənlər hər dövrdə bu nümunələri dərk etmədiklərini birbaşa ya da bilvasitə olaraq etiraf edərlər. Bu, Quranın bir möcüzəsidir; eyni ayəni bir mömin asanlıqla dərk etdiyi halda, inkar edən bir kimsə dərk edə bilmir. Bu da bizə Quranın başa düşülməsinin və ya başa düşülməməsinin tamamilə niyyətlə əlaqəli olduğunu, Allahın istədiyinə başa düşmək qabiliyyəti verdiyi kimi, istədiyini də ayələrindən pərdələndiyini göstərir. Bu vəziyyət bir ayədə belə xəbər verilir:

**Rəbbinin ayələri yadına salınarkən onlardan üz döndərən, əvvəlcə öz əlləri ilə etdikləri günahlarını unudan adamdan daha zalım kim ola bilər? Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən onları doğru yola çağırsan da, onlar heç vaxt doğru yola gəlməzlər. (Kəhf surəsi, 57)**

İman gətirən, səmimi, vicdanlı bir insan Qurandakı əsas imani mövzuları, hökmləri çox asan başa düşər və tətbiq edər. Peyğəmbərimiz (s.ə.v) bir hədisində Quran ilə əlaqədar olaraq belə buyurur:

*Quran, Allah Azzə və Cəllənin kəlamıdır. Elə isə Quran sahibi, Rəbbinin qadağan etdiklərini etməmək surəti ilə ona təzim (hörmət) etsin. (G. Ahmed Ziyaüddin, Ramuz El Hadis, 1-ci cild, Gonca Yayınevi, İstanbul, 1997, 227/10)*

İman etməyən, səmimiyyətsiz, ön mühakiməli bir insan isə hər cür texniki məlumata və mükəmməl bir ərəbcəyə sahib olsa da, bir elm sahəsində nüfuz qazansa da, yenə də Quranı lazım olduğu kimi və doğru şəkildə başa düşməyə bilər, çünki belə bir insan əvvəlcə nəfsinə tabe olur. Buna görə də ağlını işlətmə qabiliyyətindən məhrumdur. Ağlını işlədə bilmədiyi üçün də Quran ayələrini səhv başa düşər, ayələr haqqında yanlış və ağılsız şərhlər edər.

Bu kitabda, ağıllarını işlədə bilməyən bu cür kəslərin, Quranı yanlış şərh etmələrinin səbəbləri yazılır, bunların ayələr haqqında etdikləri ağılsız şərhlərdən və etirazlardan ibarət

olan müxtəlif nümunələr tədqiq edilir və bunların hamısının cavabları verilir. Bu kəslərin Quran ayələri haqqında gətirdikləri etirazlara əsaslanaraq, ağılsızlıqları, mühakimələrindəki və formal xarakterli məntiqlərindəki pozğunluqlar müəyyənləşdirilir.

# QURANI SƏHV ŞƏRH ETMƏ SƏBƏBLƏRİ

## Qərəzlilik, pis niyyətlilik və səmimiyyətsizlik

İnsan, pis düşüncəli və birtərəfli olaraq Qurana yaxınlaşdığında onu başa düşməsi mümkün deyildir. Bu, Allahın bir qanunudur. Bir insan nə qədər ağıllı, nə qədər mədəni olursa olsun, səmimiyyətsiz və pis niyyətli bir dünyagörüşüylə Quranı qiymətləndirdiyində onu lazım olduğu kimi başa düşə bilməz, doğru şərh edə bilməz və bir çox ziddiyyətə düşər. Buna görə, Qurana qərəzli, nağd fikirli, riyakarcasına yaxınlaşan bir adamın bu pis niyyətli mövqeyi, özüylə Quran arasında-ayələrdə bildirildiyi üzrə-“görünməz bir pərdə” yaradacaq. Bu da Quranı başa düşməsinə və dərk etməsinə maneə olacaqdır. Bu həqiqət, İsra surəsindəki ayələrdə belə ifadə edilir:

**Sən Quran oxuduğun zaman səninlə Axirətə inanmayanların arasına gözəgörünməz pərdə çəkdik. Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən Quranda Rəbbinin Tək Allah olduğunu yada saldığın zaman onlar bu dəvətə nifrət edərək arxalarını çevirib gedərlər. (İsra surəsi, 45-46)**

Quran bütün insanları doğruya çağıran bir dəvətdir, ancaq Quranı yalnız iman gətirənlər tələb olunduğu kimi dərk edə bilərlər. Möminlərin Quranı başa düşmələrindəki ən əhəmiyyətli xüsusiyyətləri isə vicdan və səmimiyyətləridir. Möminlərdən fərqli bir əhvali ruhiyyəyə və xarakterə sahib din əxlaqından uzaq kəslərin Quranı başa düşə bilməmələri də çox təbiidir.

Quran, olduqca açıq, sadə və aydın bir dilə malikdir, amma dediyimiz kimi, ancaq səmimi və vicdanlı kəslərin başa düşə biləcəkləri xüsusiyyətdə bir Kitabdır. Hələ İslamla tanış olmamış, iman gətirməmiş hər hansı bir insan, açıq bir ürəklə, qərəzsiz və səmimi olaraq yaxınlaşdığında, daşıdığı bu mömin xüsusiyyətləri səbəbiylə Quranın Uca Allahın sözü olduğunu vicdanı ilə fərq edəcəkdir. Çünki, istər üslubundakı heybət, mükəmməllik və sadəlik, istərsə də ehtiva etdiyi üstün elm və hikmətlə Quranın bir insan sözü olmadığını, ilahi bir Kitab olduğunu hər vicdanlı adam qəbul edər. Bu vicdanlı adam iman gətirib hörmət və səmimiyyət ilə yaxınlaşdığı təqdirdə isə Quranın hikmətli mənaları özünə aydın olmağa başlayar.

Quran özünə səmimi, təvazökar bir ürəklə yaxınlaşan adam üçün bir hidayət rəhbəri olduğu kimi, pis niyyətlə, düşməncə yaxınlaşanlar üçün də doğru yoldan azmaq vəsiləsi ola bilər. Ətrafdan eşitdiyi səhv məlumatlar, yanlış şərhlər, ehkamlar, yalanlar və qərəzli mühakimələrlə birlikdə öz səhv prinsiplərini, dünya görüşünü və həyat fəlsəfəsini də dayaq nöqtəsi edərək Quranı birtərəfli şəkildə qiymətləndirmək istəyən bir kimsə, əlbəttə ki, nə

Quranı başa düşə, nə də ondan istifadə edə bilər. Tam əksinə, Quran belə bir kimsənin azğınlığının və təəccübünün artmasına vəsilə olar. Quranı başa düşə bilmədiyi kimi, Quran haqqında ağılsız və məntiqsiz etirazlar, yanlış və axmaq şərhlər edər. **"Bu ayələr zalımların ancaq ziyanını artırır"** (İsra surəsi, 82) ayəsində bildirildiyi kimi Qurandan və imandan uzaqlaşar.

Bu cür ağılsız kəslərin müxtəlif Quran ayələri haqqında etdikləri ağılsız şərhlərin və bu ayələrin həqiqi məna və təfsirlərini nümunələriylə bərabər sonrakı bölmələrdə tədqiq edəcəyik.

## Mütəşabih ayələrlə möhkəm ayələri qarışdırmaq

Qurandakı hökmlər, iman gətirənlər tərəfindən asanlıqla aydın olacaq və tətbiq oluna biləcək şəkildə açıq və sadə bir üslubla izah edilmişdir. Bunlara möhkəm ayələr adı verilir. Möhkəm ayələr, Quranda bildirildiyi kimi, **"Kitabın anası"** yəni əsasıdır. Möhkəm ayələr xaricində Quranın bir də mütəşabih ayələri vardır. Mütəşabih ayələr, müxtəlif təşbeh və bənzətməli izahatlar ehtiva edən ayələrdir. Mütəşabih ayələr, Quran haqqında məlumatı olmayan və ya pis niyyətli kəslər tərəfindən tamamilə səhv göstərilib, qeyri-mümkün mənalarda şərh oluna bilər. Bu vəziyyət Quranda belə açıqlanır:

**Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər. (Al-i İmran surəsi, 7)**

Mütəşabih ayələrin mənaları Allah qatındadır. Tarixən Qurandakı mütəşabih ayələri müxtəlif səhv məqsədləri və istəkləri əsasında şərh edən azğın kəslər, məzhəb və cərəyanlar mövcud olmuşdur. Bunun fitnə olduğu və ancaq ürəklərində xəstəlik olan, yəni doğru yoldan sapan, imanını itirən kəslərin bu yola girdikləri ayədə bildirilmişdir. Həmçinin, ayədə, mütəşabih ayələrin şərhini ancaq Allahın bildiyi də ifadə edilmişdir. Allah istədiyinə bu ayələrin şərhiylə əlaqədar elm verə bilər. Ancaq iman gətirənlər özlərinə elm verilməyən mütəşabih ayələrin hamısına inanarlar, ürəklərində xəstəlik olanların və fitnə törədənlərin etdikləri kimi ayələr haqqında azğın şərhlər etməyə cəhd göstərməzlər.

## Bədiüzzaman Səid Nursinin mütəşabih ayə və hədislərlə əlaqədar şərhləri

Bədiüzzaman Səid Nursi, ayələrdəki mütəşabih mənaları ağacın yerin altındakı görünməyən köklərinə bənzədir və bu şərhlərin sonsuz hikmət sahibi olan Rəbbimizin insanlara böyük bir lütfü olduğunu deyir:

*Quranın ayələrinin iç-içə girmiş dairələr halında geniş olan mənaları vardır. Bunlar bir-biri ilə kəsişən deyil, mərkəzləri eyni olan dairələrdir. Eynilə durğun bir hovuza atılan daşın ətrafında get-gedə genişlənən halqaların meydana gəlməsi kimidir. Əsl mərkəzi məna sarih (açıq) məna olub, digərləri genişləyən məqsədlər vəziyyətindədir. Yaxud onlar ağacın genişləyən halqaları kimidirlər. Ağac nə qədər geniş gövdəli olarsa, o qədər dəyərli olar. Bir ağaca kənardan baxdığımızda onun gövdəsini və budaqlarını görərik. Halbuki, dərində onun qalın kökləri, daha dərində isə minlərlə nazik kökləri vardır. Quran ayələrinin də səthi (görünüşə görə), dərinliyi, kökləri və nazik damarları vardır. (Mektubat, 502)*

Bədiüzzamanın da dediyi kimi Qurandakı və hədislərdəki bu üstüörtülü izahatlar çox müxtəlif formalarda izah edilə bilər, İslam alimləri tərəfindən şərh edilə bilər. Bədiüzzaman Səid Nursinin ən çox əhəmiyyət verdiyi mövzulardan biri, ayə və hədislərdəki bənzətmələrin insanlara müxtəlif formalarda izah edilməsidir. Risalə-i Nurlarda həm ayələr təfərrüatlı olaraq təfsir edilir, həm də hədislər müxtəlif formalarda izah edilir. Hətta Səid Nursi tək bir hədisi bəzən 15-20 fərqli formada təfsir edər. Bədiüzzamanın bu sözləri mütəşabih elmi cəhətdən əhəmiyyətlidir:

*... Lakin hədisin Quran kimi mütəşabihatı (üstüörtülü, bir çox mənanı verən izahatlar ehtiva edən ifadələr) var, ancaq havas (qabaqcıllar, seçilmişlər) onların mənalarını tapa bilər. (Mektubat, 513)*

*Mütəşabihat belə incə və müşkül (çətin) istiarələrin (metaforası, bir sözün mənasını gücləndirmək üçün başqa mənada istifadə etmək) bir hissəsidir. Çünki mütəşabihat, incə həqiqətlərə sürətlərdir (varlığın görünən istiqamətidir). (İşaretü-l İcaz, 170)*

Bədiüzzaman Səid Nursi bu sözləri ilə Quran ayələrinin və hədislərin İslam alimləri tərəfindən müxtəlif formalarda şərh edilməsinin nə qədər əhəmiyyətli və lazımlı bir vəzifə olduğuna diqqət çəkir. Bədiüzzaman Risalə-i Nurlarda mütəşabih ayə və hədislərin başa düşülməsi mövzusunda İslam alimlərinin üzərinə çox əhəmiyyətli vəzifələr düşdüyünə tez-tez diqqət çəkir. Bədiüzzaman "Məktubat"da yer alan aşağıdakı sözündə, Quran ayələrinin iç-içə girmiş, pilləli mənaları olduğunu deyir və bu ifadələrin İslam alimləri, təfsirçilər və arif kəslər tərəfindən şərh edilməli olduğunu ifadə edir:

*Quran-ı Hakimin cümlələri bir mənaya mühasir (əhatə edən, bürüyən) deyildir. Bəlkə nəvi bəşərin ümumi təbəqələrinə (müxtəlif insan siniflərinin hamısına) xitab etdiyi üçün hər təbəqəyə qarşı bir təzəmmun edən (əhatə edən, ehtiva edən) bir külli (bütün) hökmündədir. Bəyan olunan (şərh edilən) mənalar, o külli kaidənin cüziyatları (bir tamın hissələri)*

*hökmündədir. Hər bir təfsirçi, hər bir arif, o küllidən bir cüzi zikr edir. Ya kəşfinə, ya dəlilinə, yaxud xislətinə (feyz alınan yol) istinad edib (təvəkkül edib), bir mənanı seçir... Bunlar ümumən murad və məqsud (niyyət edilən, istənilən) ola bilər və onun həqiqi və məcazi mənalarıdır. (Mektubat, 315)*

Bədiüzzamanın da ifadə etdiyi kimi üstüörtülü mənada olan ayə və hədislər İslam alimlərinin və digər elm sahibi kəslərin şərhiylə yeni bir məna kəsb edir, ancaq hər bir məna bir tamın parçaları olaraq qəbul edilir.

Bədiüzzaman Səid Nursi bir sözündə Quran ayələrində gələcəyə və elmi tərəqqiyə dair bir çox işarələrin də olduğunu deyir. Rəbbimizin bu işarələri üstüörtülü şəkildə bildirdiyini, ancaq İslam alimlərinin şərhləriylə tam olaraq şərh edilə biləcəyini ifadə edir:

*Quranın bu bənzər ifadələrdən istifadə etməsindəki hikməti başa düşdüm. Lakin insanları tövhidə irşad məqsədi güdərkən, kainatdakı həqiqətlərə də işarə etməsi lazım deyildimi? Quran əhli-təhqiqi (alimlər) həqiqətə çatdırmaq üçün, karine (işarələr) və əmarələr (əlamətlər) qoymuşdur. Məsələn, dünyanın fırlandığını aydın şəkildə bildirməməklə bərabər, başqa ayələrdə kürə şəklində olub, fırlandığına dair işarələr vardır.*

*... Əlfaz-i Quraniyə (Quranın sözləri) elə bir tərzdə yazılmışdır ki, hər bir kəlamın, hər bir sözün, hər bir hərfin və hətta bəzən bir sükutun çox vücuhu (üzü) vardır. Hər bir həmsöhbətinə ayrı bir qapıdan payını verər. (Sözler, 355)*

Bədiüzzamanın da ifadə etdiyi kimi Quran ayələrində yer alan elmi möcüzələrin böyük bir hissəsi üstüörtülü izahatlarla təsvir edilir. Bu möcüzələrin şərhi isə İslam alimləri tərəfindən aparılır, beləcə ancaq indiki vaxtda meydana gələn bir çox elmi inkişafın müasir dövrümüzdən 1400 il əvvəl Quranda ifadə edildiyi aydın olur.

## Elmalılı Hamdi Yazırın mütəşabih ayə və hədislərlə əlaqədar şərhləri

Böyük İslam alimi və təfsirçi Elmalılı Məhəmməd Hamdi Yazır da əsərlərində mütəşabih ayələrin şərhlərinə çox ətraflı şəkildə diqqət çəkir. Mütəşabih ifadələrin nə qədər çox mənalar ehtiva etdiyini, bir mövzunu izah etməkdə nə qədər əhəmiyyətli və dəyərli olduqlarını bir sözündə belə izah edir:

*Mütəşabih, mühmel (dəyərsiz) bir şey, mənasız bir söz deyildir. Əksinə çox sayda mənalar ehtiva etdiyi üçün əsl məqsədi ayırd etməyimiz mümkün olmadığı üçün bəzi kəslərə mübhəm (naməlum) kimi görünür. Mütəşabih əslində, bəyan nəvilərinin (müxtəlif şərhlərin) bir çoxunu özündə saxlayan bir ifadədir. Həqiqi və məcazi məna, sarih və kinayə, təmsil (nümunə) və təhqiq (istintaq), zahir və hafi (gizli) kimi nəvilər bunlara aiddir... Məlum olduğu kimi bəzən izahatda ibham (qeyri-müəyyənlik), bəlağətin ən qiymətli təzahürlərindən (görünüşlərindən) sayılar. Hər bir şəxs, hər sözə həmsöhbət ola bilmədiyi kimi bəşəriyyət də*

*ümumiyyətlə, elmi ilahinin külliyatını (Allahın elminin hamısını) başa düşməyə qadir ola bilməz. (M. Hamdi Yazır, Hak Dini Kur'an Dili, İstanbul, 1935, 1,48)*

## Quranı şərh etməyi bacara bilməmək

Quran insanlar üçün lazım olan hər cür məlumatı özündə saxlayan möcüzəvi bir kitabdır. Bu da Qurandakı sonsuz ilahi hikmətdən qaynaqlanır. Müəyyən saydakı ayələrin daxilinə sərhədsiz bir elm, üstün bir hikmətlə yerləşdirilmişdir. Ayələr öz daxilində zahiri, batini, bir-birinə qarışmış və qatlanmış bir çox məna ehtiva etdikləri kimi ayələrin bir-birləri arasındakı əlaqələrdən də saysız mənalar çıxar. Bəzən tək bir ayənin şərhi belə müstəqil bir kitab mövzusu ola bilər. Buna görə də, Quranı şərh etmək üçün hər şeydən əvvəl Quranı tam bilmək şərtdir.

Ayəni düzgün şərh edə bilmək, əsl mənanı başa düşə bilmək üçün, Quranı tam bilməkdən əlavə, İslam alimlərinin bu mövzuda istifadə etdiyi üsulları da bilmək lazımdır. Bu üsulların ən əhəmiyyətlilərindən biri, bir ayəni Quranda olduğu yerə əsasən qiymətləndirməkdir. Quranda çox vaxt bir ayənin mənası o ayənin içində keçdiyi mövzu bütövlüyündən aydın olar. Ayənin əvvəli və ondan sonrakı ayələr o ayədəki mənanın dəqiq olaraq başa düşülməsini təmin edir. Bu vəziyyət İslami ədəbiyyatda, ayənin "siyak və sibakı" yəni "gəlişi və gedişi" olaraq adlandırılar. Buna görə də, bir çox ayəni olduğu yerdən ayırıb, əvvəlinə axırına diqqət yetirmədən, yalnız daxilində olan sözlərə görə şərh etməyə cəhd göstərmək çox səhv mənaların çıxmasına səbəb ola bilər.

Əksər dövrlərdə, bəzən cəhalət nəticəsində bəzən də məqsədli olaraq, ayələrin bu şəkildə səhv təfsir edilməsi, Quranın səhv başa düşülməsinə və Quran haqqında pis niyyətli insanlar tərəfindən müxtəlif böhtanlar atılmasına gətirib çıxarmışdır.

Bir başqa əhəmiyyətli üsul da ayələrdə keçən sözlərin mənalarını yenə ayələri əsas götürərək başa düşməyə çalışmaqdır. Bir çox söz Quranda xüsusi mənalarda istifadə olunur. Quranın müəyyən bir yerində istifadə edilən bir kəlmənin hansı mənada istifadə edilməsi çox vaxt o kəlmənin Quranın başqa bir yerində istifadə edilmə formasından aydın olar. Bəzən bir sözün birdən çox mənası ola bilər. Belə bir sözün, yer aldığı ayədə hansı mənada istifadə edildiyi, o sözün Quranın başqa yerlərində hansı mənada istifadə edilmiş olduğundan aydın olar. Yoxsa lüğəti açıb Quranda gördüyü hər sözü ilk mənasıyla qəbul etmək çox səhvdir, hətta bəzən tam əksi olan məna və şərhlər əldə etməyə səbəb ola bilər. Buradan da aydın olduğu kimi, Quran öz-özünü izah edən bir kitabdır. Bir ayənin təfsiri, şərhi bəzən bir başqa ayənin və ya bir neçə ayənin mənasında gizli ola bilər.

Ayəni düzgün şərh etməyin əhəmiyyətli şərtlərindən biri də Quranın ruhunu qavramaqdır. Quranın ruhunu qavraya bilmək üçün də Quranı tam bilmək lazımdır. Allahın sonsuz mərhəmət, şəfqət və ədalətinin Quranın bir çox ayəsindəki təcəllisi (əks olunması)

görülüb başa düşülməli və Quranın hamısı bu dünyagörüşünə görə qiymətləndirilməlidir.

Olduqca əhəmiyyətli olan bir mövzu da, müsəlmanların öz şərhlərinə və qiymətləndirmələrinə görə Qurandan hökm çıxarmamaqlarıdır. Saleh bir müsəlman bu mövzuda böyük İslam alimlərinin şərhlərinə tabe olmalı, onların dinin əsasları haqqında etdikləri şərhlərə görə hərəkət etməlidir.

Quran ilahi bir Kitab olduğu üçün əlbəttə, digər kitablara bənzəməz və onlarla müqayisə edilə bilməz. Quranın özünə xas xüsusi bir üslubu vardır. Quranı-xüsusilə də Quranın mütəşabih ayələrini-doğru və lazım olduğu kimi şərh edə bilmək üçün eyni zamanda Quranın ümumi üslubunu, təməl ruhunu layiqincə qavramaq lazımdır. Quranın ruhuna uyğun bir dünyagörüşünə sahib olmaq, Allahın Quranla bildirdiyi müxtəlif elmləri lazım olduğu kimi başa düşə bilmək üçün əhəmiyyətli bir şərtdir.

## Ərəbcə bilməmək

Allah, Quranı ərəbcə kitab olaraq endirdiyini bildirir. Əlbəttə ki, türkcə və digər xarici dillərə edilən tərcümələri də Quranın ayələrini başa düşmək, Allahı tanımaq, imanın əsaslarını, ibadətlərin əsas xüsuslarını öyrənmək, öyüd-nəsihət alıb təfəkkür etmək üçün lazımlıdır. Ancaq bu dillər, heç bir zaman Quranın əsli ilə tamamilə eyni olmaz. Sözbəsöz edilən bir Quran tərcüməsində belə bir çox əskiklik və məna itkisinin olması zəruridir. Çünki ərəb dilindəki bir çox sözün, qrammatik cəhətdən cümlə quruluşunun başqa bir dilə eynilə tərcüməsini etmək mümkün deyildir. Bu səbəbdən, "məal" adı verilən Quran tərcümələri orijinal ayələrin tam mənalarını verə bilməz, ancaq yaxın və ümumi bir məna əldə olunmasına yardımçı olarlar.

Buna görə də, Quranda yer alan bir çox hikmətin başa düşülməsi ancaq onun orjinal dilində tədqiq edilməsi ilə mümkün olar. Bu səbəbdən, Quranın hər ayəsini, hər hansı bir dildəki tərcüməsindəki qarşılığına baxaraq şərh etmək hər zaman məqsədəuyğun nəticə verməyəcəyi kimi, səhv şərhlərə də səbəb ola bilər. Tərcümələrdə tək ya da yaxın mənalarından istifadə edilən sözlərin ərəb dilindəki orjinal və fərqli mənalarını bilməmək, o ayəni lazım olduğu kimi başa düşməməyə ya da tamamilə səhv və zidd mənalar çıxarmağa səbəb ola bilər.

Bir az əvvəl də bəhs etdiyimiz kimi, Quranın xarici bir dilə tam mənasıyla hər ayəsinin eynilə, sözbəsöz çevrilməsi texniki olaraq mümkün deyildir. Lakin ayələrin izahları, təfsirləri, şərhləri əlbəttə ki, xarici bir dildə ola bilər və bu izahlardan Quranı başa düşmək, ayələrin şərhlərini öyrənmək mümkündür. Bunun üçün müsəlmanların müraciət edəcəyi mənbə, böyük İslam alimləri tərəfindən hazırlanmış olan məal və təfsirlərdir.

Ərəbcə dünyanın ən dərin və zəngin dillərindən biridir. Çox üstün bir izahat texnikası və söz bazası vardır. Ancaq bu vəziyyəti yanlış göstərib, Quranı ərəblərə nazil olmuş bir

kitab, ərəbləri isə seçilmiş bir qövm olaraq göstərməyə çalışmaq da Quran əxlaqına zidd bir şərh olar. Çünki hələ əvvəldə Quranda, insanların üstünlüklərinin ancaq Allah qorxusu və Allaha yaxınlıq, yəni təqva ilə qiymətləndiriləcəyi, bunlardan başqa heç bir meyarın etibarlı olmadığı göstərilir. Həmçinin, Quranın **"Bu Quran aləmlərə ancaq xatırlatmadır"** xatırlatmaq məqsədilə endirildiyi Sad surəsinin 87-ci ayəsində xəbər verilir. Bu cür şərhlər müxtəlif vaxtlarda öz ağıllarına görə Qurana və İslama zərər vermək istəyənlər tərəfindən cahil kütlələrə təsir etmək məqsədiylə istifadə edilər. Əlbəttə, bu faydasız bir səydir. Həmçinin, bu cür boş sözlərin nə dərəcə əsassız və pis niyyətli olduğunu başa düşmək üçün Quranı oxumaq kifayətdir.

## Allah Qatından bir ağıl və anlayışın verilməməsi

Quranın başa düşülməsi üçün Allah Qatından xüsusi bir ağıl, anlayış və qavrayış verilməli olduğu, Allahın Quran ayələrində bildirdiyi bir həqiqətdir. Quranın hamısını bilmək, doğru şərh etmək və ərəbcə bilmək Quranı başa düşmək üçün lazım olan xüsusiyyətlərdir. Lakin bütün bu xüsusiyyətlərə sahib olmaqla bərabər Uca Allahın başa düşmək qabiliyyəti verməməsi, adamın Qurandan heç bir nəsibi olmamasına səbəb olar. Buna görə də yalnız texniki bəzi xüsusiyyətlərə sahib olmaq Quranı lazım olduğu kimi başa düşüb şərh etmək üçün kafi deyildir. Tarix, görünüşdə bir çox elmi vəsfə sahib olduqları halda Quranı azğın bir şəkildə şərh edib dəlalətə düşənlərin nümunələriylə doludur. Bir çox azğın kütlənin və məzhəbin qurucuları bu cür alim kimi görünən lakin Allah Qatından bir ağıl və anlayış verilməmiş kəslərdir. Bunlar həm özlərinin, həm də özlərinə tabe olan cahil və ağılsız kütlələrin İslamdan uzaqlaşmalarına səbəb olmuşlar.

Necə ki, Peyğəmbərimiz (s.ə.v)-in dövründə, Quranı başa düşə bilməyib inkar edən Məkkə müşriklərinin vəziyyəti, Quranı başa düşmək üçün yalnız ərəbcə bilmənin kafi olmadığının da konkret bir göstəricisidir.

Allah Qatından bir anlayış verilməsinin ən əhəmiyyətli şərtlərindən biri Allah qorxusu və səmimiyyətdir. Şəhvət və nəfslərinə tabe olmaq isə bu anlayışın qazanılmasına mane olar. Buna görə də, Qurana mənfi bir ruh halı ilə, Allahın bəyənmədiyi bir niyyət və dünyagörüşü ilə yaxınlaşılması Quranı səhv başa düşməyə və şərh etməyə səbəb olar. Şəhvət və nəfsə tabe olmaq adamın ağlının itməsinə səbəb olacağı üçün, belə bir adamın Quranın sirlərini, incəliklərini, dərinliklərini qavraması təsəvvür edilə bilməz. Şəhvət və nəfsinə tabe olan adam ağlını işlətmək qabiliyyətinə sahib olmadığı üçün ayələri kobud və səthi bir dünyagörüşü ilə şərh edər, Qurandakı ilahi hikmətləri görə bilməz.

Həmçinin, nəfsinin istəklərinə tabe olan adam Quranı da öz nəfsinin istəklərinə və maraqlarına uyğun şəkildə şərh edəcəyindən, ayələrdə Allahın bildirdiyi mənaları görə

bilməsi mümkün olmaz. Nəfsinin istəklərinə tabe olan adamın ağlından istifadə edə bilmədiyi ayələrdə belə bildirilir:

**Nəfsinin istəyini ilahiləşdirən kimsəni gördünmü? Sən ona vəkillikmi edəcəksən? Yoxsa elə hesab edirsən ki, onların əksəriyyəti eşidəcək və ya anlayacaq? Onlar heyvan kimidirlər, hətta, haqq yoldan daha çox uzaqlaşmışlar. (Furqan surəsi, 43-44)**

Bu cür kəslər Quranı başa düşə bilmədikləri kimi, normal ağla sahib insanların asanlıqla dərk edə biləcəkləri mövzuları belə başa düşməkdə çətinlik çəkərlər. Ayələrlə ayələr, ayələrlə hadisələr arasındakı əlaqələri yarada bilməzlər. Nəticədə də, öz ağılsızlıqları üzündən ayələri öz aləmlərində ziddiyyətli zənn edərlər. Ağılları o dərəcə itmişdir ki, bu cəhətdən heyvanlardan belə aşağı mövqedə dayanırlar.

## Düşünməmək

Quranı doğru başa düşmək və şərh etmək üçün çox yaxşı düşünmək lazım olduğu Quranda bildirilmişdir. Sərhədsiz bir elm xəzinəsi olan Quranı səthi bir gözlə, düşünmədən hər hansı bir kitab kimi oxumaq Qurandan lazım olduğu kimi istifadə edilməsinə mane olacaqdır. Uca Allah Quranda insanları davamlı olaraq ağıllarını istifadə etməyə, düşünməyə dəvət edir. Düşünmək, ağlından istifadə etmək, Quranın mənalarını, incəliklərini, sirlərini və hikmətlərini görməyə səy göstərmək Quranı haqqıyla başa düşə bilmək üçün lazımlıdır. Allah Quranda, insana öz nəfsini, yaradılış məqsədini, dünyanın əsl mahiyyətini, insanın ətrafında baş verən hadisələrin hikmətini və bunun kimi insanın özü və ətrafı ilə əlaqədar bir çox mövzunu izah edir. Bu səbəbdən də, insanın öz nəfsi, ətrafındakıları və yaşadığı hadisələri Quran ayələrinə əsasən qiymətləndirərək bu hadisələrdəki hikmətləri görərək və bunlar haqqında çox dərin düşünərək Quranı başa düşməyə çalışması lazımdır. Ayələrdə Quranın düşünənlər üçün izah edildiyi bildirilir:

**Rəbbinin doğru yolu budur. Artıq Biz ayələri düşünən bir qövmə izah etdik. (Ənam surəsi, 126)**

**Biz ayələri düşünən adamlar üçün beləcə izah edirik. (Yunis surəsi, 24)**

Ayələr düşünən insanlar üçün izah edildiyinə görə, düşünməyən kəslər ayələrdəki mənanı qavraya bilməzlər, bu səbəbdən düşünməyən kəslər Quranı başa düşə bilməzlər.

Həqiqətdə, insan öz daxilində və xaricində yaşadığı hər hadisədən bir çox ibrət almalıdır. Allah Quranı, insanın bunları necə şərh etməsi və izah etdikdən sonra necə davranması lazım olduğunu göstərən bir rəhbər olaraq endirmişdir. Yəni Quran insanın yaşadığı hər anı izah edən və nizama salan bir yol göstəricidir. İnsanın hər anını əhatə edən və sonsuz elm və hikmət sahibi Allahın göndərdiyi bu mübarək Kitabı lazım olduğu kimi başa düşmək də əlbəttə ki, Quranı Allahın şəninə yaraşan bir şəkildə düşünərək və ağlını işlədərək oxumaqla olar. Necə ki, **"Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik"** (Sad surəsi, 29) ayəsi ilə də Quranın ciddi bir şəkildə üstündə düşünülməsi və öyüd alınması lazım olan bir Kitab olduğu xəbər verilir. Quranı lazım olduğu kimi düşünmənin əhəmiyyəti bir başqa ayədə də belə vurğulanır:

**Məgər kafirlər bu Söz haqqında düşünmürlərmi? Yaxud onlara ulu babalarına gəlməyən bir şey gəldi? (Müminun surəsi, 68)**

Quranı aləmlərin Rəbbi olan Allah endirmişdir. Buna görə də sərhədsiz və üstün bir elmi özündə ehtiva edir. Qurandakı elm, Allahın sifətlərindən yaradılışın hikmətlərinə, insan ruhunun incəliklərini dünyanın, kainatın və axirətin həqiqətlərinə və sirlərinə qədər saysız mövzunu əhatə edir. Bu səbəbdən, olduqca sadə və əsaslı bir izahat daxilində yer alan bu məlumatları qavramaq da ancaq dərin bir düşüncə, açıq bir şüur, iti bir diqqət, səmimi bir ürək və təmiz bir vicdan ilə olar.

## Qürur və təkəbbürlülük

Adamın qürurlu olması da Quranı başa düşməsi üçün çox böyük bir maneədir. Çünki qürurlu bir insan özünü hər kəsdən üstün gördüyü üçün, Qurana lazım olan təvazökarlıq və qulluq şüuru üzrə yaxınlaşa bilməz. Quranda özünə qulluğunu, acizliyini, sahib olduğu hər şeyi və hər xüsusiyyəti Allahın verdiyini xatırladan ayələri görməyə səbir edə bilməz. Öyüd almağa, Allahın əmrlərinə qarşı boyun əyməyə, qadağalarına riayət etməyə, təslimiyyətli davranmağa yanaşa bilməz. Bunları təkəbbürlüyünə və qüruruna sıxışdıra bilməz. Bütün bunlardan ötəri də Quranı, təkəbbürlü və qürurlu olan şəxsiyyəti üçün bir mane olaraq görər. Onu təkzib edə bilmək üçün var gücüylə mübarizə aparar, ayələr haqqında bacardığı qədər mübahisə edər. Təkəbbürlənənlərin ayələri başa düşə bilməyəcəkləri Quranda belə xəbər verilmişdir:

**Haqsız olaraq yer üzündə təkəbbürlük göstərənləri ayələrimdən uzaqlaşdıracağam. Onlar bütün möcüzələri görsələr də onlara inanmazlar. Onlar doğru yolu görsələr, ora**

**yönəlməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bu ona görədir ki, onlar ayələrimizi inkar edir və onlara məhəl qoymurdular. (Əraf surəsi, 146)**

**Rəbbinin ayələri yadına salınarkən onlardan üz döndərən, əvvəlcə öz əlləri ilə etdikləri günahlarını unudan adamdan daha zalım kim ola bilər? Quranı anlamasınlar deyə, Biz onların qəlbinə örtüklər çəkdik, qulaqlarına da tıxac vurduq. Sən onları doğru yola çağırsan da, onlar heç vaxt doğru yola gəlməzlər. (Kəhf surəsi, 57)**

Qürurlu bir insan, öz ağlını, mədəniyyətini, elmini hər kəsdən üstün görər. Buna görə də sahib olduğu akademik karyera, mədəniyyət, informasiya kimi xüsusiyyətlər, haqqında danışılan adamın Qurandan hərtərəfli uzaqlaşmasına səbəb olar. Elm adamı və ya aydın bir insan olaraq görünüb də Quran haqqında ağılsız iddialar irəli sürənlərin bu vəziyyəti də, qürurun, hər kim olursa olsun Quranı başa düşməyi əngəlləyən canlı bir nümunədir. Bu cür insanların vəziyyəti ayələrdə belə təsvir edilir:

**Həqiqətən, özlərinə bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlərin ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur. Onlar heç vaxt buna çatmayacaqlar. Sən Allaha sığın! Həqiqətən, O, Eşidəndir, Görəndir. (Mömin surəsi, 56)**

**O, Allahın ona oxunan ayələrini eşidir və sonra, sanki onları eşitməmiş kimi təkəbbür göstərərək inadkarlıq edir. Beləsini ağrılı-acılı bir əzabla müjdələ!. (Casiyə surəsi, 8)**

Bütün bu ayələrdən, Quranı doğru başa düşə bilmək üçün təkəbbürlənməyən, təvazökar, Allaha tam təslim olmuş, boyun əyən, Uca Allahın sonsuz qüdrəti qarşısında bir "heç" olduğunun şüurunda olan quruluşa sahib olmaq lazım olduğu aydın olur.

## Quranı, Qurana və sünnəyə uyğun olmayan bidət və xurafatlarla şərh etməyə çalışmaq

İnsanların düşdüyü ən böyük səhvlərdən biri, qulaqdan dolma, ata-babadan eşitmə, Quranda və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsində olmayan, din adına uydurulmuş bəzi uydurma sözlər, bidətlər və xurafatlarla Quranı şərh etməyə çalışmaqdır. Bu cür insanlar həqiqətdə Qurana deyil, batil inanclara tabe olarlar, Quranı da bu batil inanclarına, öz ağıllarına görə uydurmağa çalışırlar. Bu kəslərin səhv məntiqləri Quranda belə təsvir edilmişdir:

**“Onlara: “Allahın nazil etdiyinə tabe olun!” – deyildikdə, onlar: “Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!” – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə?” (Bəqərə surəsi, 170)**

Cəmiyyətin bəzi seqmentlərində rast gəlinən bu səhv şərh etmə, Quranda bildirilən əxlaqdan tamamilə fərqli və zidd bir əxlaq meydana gətirər. Bəzən İslam adına irəli sürülən bu modelin Peyğəmbərimiz (s.ə.v)-in tətbiq etdiyi, Quranda bildirilən din, əxlaq anlayışı və həyat tərzi ilə heç bir əlaqəsi yoxdur.

Bu xarakterdəki insanların şərhlərində Quranla heç bir şəkildə uyğun gəlməyən, Peyğəmbərimiz (s.ə.v)-in sünnəsində olmayan, Qurana tamamilə zidd fikirlər, şərhlər, hökmlər və tətbiqlər guya Qurandan bir mənbə kimi göstərilməyə çalışılar. Ancaq bu əsassız iddialara heç bir məntiqli şərh gətirilə bilməz. Tətbiq edilməyə çalışılan bəzi zorakı izahların da nə qədər məntiqsiz və gülünc olduğunu ağıl və şüur sahibi olan hər kəs asanlıqla görər.

Nadanlıqla edilmiş şərhlərlə insanları azdırmağa çalışan, Uca Rəbbimiz Allahın ayələrini qavramaq qabiliyyətindən uzaq insanların vəziyyəti Quranda belə xəbər verilmişdir:

**İnsanların eləsi vardır ki, nadanlıqla Allahın yolundan döndərmək və onu bir əyləncə mövzusu etmək üçün sözün “boş və məqsədsiz olanını” qəbul edirlər. Məhz onlar üçün alçaldıcı bir əzab vardır. Ayələrimiz ona oxunduğu zaman sanki eşitmirmiş, qulaqlarında tıxac varmış kimi təkəbbürlə arxasını çevirir. Artıq sən ona şiddətli bir əzab ilə müjdə ver. (Rum surəsi, 6-7)**

## Quranın elmi ayələrini qavramamaq

Quranda bir çox elmi həqiqətə aydın və ya dolayı olaraq işarə edilir. Kainatın meydana gəlişindən insanın yaradılış mərhələlərinə, yağışın meydana gəlməsindən qitələrin hərəkətinə qədər bir çox mövzudan Quranda, Allahın yaratmasındakı üstünlüyün və bənzərsizliyin nümunəsi olaraq bəhs edilir. Ancaq Quran əlbəttə ki, bir elm kitabı deyildir. Quranda çox vaxt açıq və dəqiq bir üslubla bəhs edilən elmi mövzular bəzən də bənzətmələr, işarələr, üstüörtülü izahatlarla müzakirə edilər. Elmi mövzular və inkişafları haqqında çox məlumatı və təməli olmayan, incə bir qavrayışdan uzaq bəzi ön mühakiməli kəslər isə bu cür ayələrin hikmətini qavramadıqlarına görə öz aləmlərində Qurana bəzi etirazlar edirlər.

Halbuki, bu gün 21-ci əsrin insanı, Quranda diqqət çəkilən bir çox elmi həqiqətin, ən son texnologiyanın müşahidə, təcrübə və məlumatları ilə möcüzəvi bir şəkildə

təsdiqləndiyinə şahid olmuşdur. Belə ki, etibarsızlıqları hələ son iki əsrdə aydın olan xurafatlar yüzlərlə ildir ki, elm dünyasına hakim olduğu halda, Quranda, 1400 il əvvəldən indiki vaxtda təsbit edilmiş və sübut edilmiş elmi həqiqətlərə diqqət çəkilmişdir.

Böyük Partlayış, kainatın genişlənməsi, zamanın nisbi olması, qitələrin hərəkət etməsi və s. kimi bir çox elmi mövzu, hələ Quranın endirildiyi zaman 1400 il əvvəldən xəbər verilmişdir. *(Ətraflı məlumat üçün bkz. Kuran Mucizeleri, Harun Yahya)* Bu elmi ayələrin sirri əsrlər boyu bunları oxuyan müsəlmanlar üçün gizli qalmışdır. Lakin müsəlmanlar Quranın Allahdan gələn bir haqq olduğuna heç bir şübhəyə düşmədən inandıqları üçün hələ şərhini edə bilmədikləri bu ayələrin də haqq olduğuna və bir çox sirr və hikmət ehtiva etdiyinə iman gətirmişlər. Yəni ağlını istifadə edən və dərin düşünmə qabiliyyətinə sahib olan insanlar üçün hər ayə, Allahın sonsuz elminin bir hissəsidir. Yalnız hələ sirri açılmamış, şərhi insanlara bildirilməmişdir. Bu cür ayələr möminlər üçün bir şövq və həyəcan mənbəyi olar. Allahın sonsuz elmi ilə hər şeyi əhatə etdiyini hiss etmələrini təmin edər.

Mövcud elm və texnologiya səviyyəsiylə hələ izah edilməmiş ayələri etiraz mövzusu halına gətirmək isə pis niyyətli kəslərin bir xüsusiyyətidir. Quranda bu kəslərdən belə bəhs edilir:

**Nəhayət haqq-hesab yerinə gəldikləri zaman Allah deyər: "Ayələrimi başa düşmədiyiniz halda, onları yalanmı saydınız? Bəs siz nə iş görürdünüz?" (Nəml surəsi, 84)**

Qurana qərəzliklə yaxınlaşan belə bir kimsənin, məqsədi onsuz da öz aləmində Quranda ziddiyyət axtarmaq olduğundan, həmin anda ağlının kəsmədiyi, məlumatının çatmadığı hər hansı bir ayəni, öz zəif ağlına görə Quranın ziddiyyəti zənn edər. Halbuki, Quranda, endirildiyindən bəri yüzlərlə ildir ki, mənası gizlənmiş və ancaq indiki vaxtda aydın olmuş elmi ayələr olduğu kimi, daha sonrakı tarixlərdə aydın olacaq, bu gün hələ mənası aydın olmamış elmi ayələr də ola bilər. Məsələn, Quranda maddə nəqli və qoxu nəqli ola biləcəyinə işarə edilir. Müasir dövrün texnologiyası ilə hələ mümkün olmasa da bu iki mövzu, elm-fantastikanın gündəmində, gələcəyin texnologiyası olaraq çoxdan özünə yer tutmuşdur. Bunlarla əlaqədar Qurandakı ayələr belədir:

- Hz. Süleymanın yanındakı elm sahibi bir şəxsin Səba məlikəsi Bəlqisin taxtını yüzlərlə kilometr məsafədəki sarayından bir anda gətirməsi:

**Süleyman dedi: "Ey əyanlar! Onlar müti olaraq yanıma gəlməmiş hansınız onun taxtını mənə gətirə bilər?"**

**Cinlərdən çox qüvvətli birisi dedi: "Sən məclisdən qalxmamış mən onu sənə gətirərəm. Mən bu işi görməyə çox qüvvətliyəm, etibarlıyam!"**

**Kitabdan xəbəri olan bir başqa kimsə isə belə dedi: "Mən onu sənə bir göz qırpımında gətirərəm!" Süleyman taxtı yanında hazır durmuş görən kimi dedi: "Bu, Rəbbimin lütfündəndir ki, məni sınağa çəksin, görək şükür edəcəyəm, yoxsa nankor olacağam! Kim şükür etsə, ancaq öz xeyrinə şükür etmiş olar, kim də nankor olsa, bilsin ki, həqiqətən, Rəbbim onun şükrünə möhtac deyildir, Səxavətlidir!". (Nəml surəsi, 38-40)**

<u>- Hz. Yaqubun, oğlu hz. Yusifin qoxusunu kilometrlərlə uzaqdan duyması:</u>

**Karvan Misir torpağından ayrılanda ataları dedi: "Mən, həqiqətən də, Yusifin qoxusunu hiss edirəm. Bircə məni ağılsız saymayaydınız". (Yusif surəsi, 94)**

Qiyamətə qədər qüvvədə qalacaq, bütün dövrləri əhatə edən üstün bir elmin gizli olduğu Quranın bəzi ayələrinin verdiyi mənaları bugünkü elmin səviyyəsi ilə başa düşə bilməmək çox təbiidir. Müasir dövrümüzün elm və texnologiyası hələ yetərli səviyyəyə çatmamışdır, elm inkişaf etdikcə Quran ayələrindəki elmi həqiqətlərə işarə edən "qatlanmış mənalar" daha da yaxşı aydın olur.

## İçində yaşadığı quruluşun səhv meyarlarına görə Quranı şərh etmək

Bir qisim insanlar da içində yaşadıqları dövr və cəmiyyətin şərtlərini özlərinə meyar qəbul edər və əksəriyyətini qəbul edib tətbiq etdiyi qaydaları mütləq həqiqətlər zənn edərək Quranı qiymətləndirməyə çalışarlar. Bu cür kəslər Qurana etiraz etməyə cəhd göstərənlərin məlumat, anlayış və mədəni səviyyə cəhətdən ən alt, ancaq ən çoxluq təşkil edən seqmentini əmələ gətirər.

Bu cür insanlara, hər cür peşə qrupunda və ictimai mühitdə rast gəlmək mümkündür. Çox düşünməyən, hər hansı bir dünya görüşü olmayan, gününü gün etməyə ya da hayatını qazanmağa çalışan geniş bir seqmenti əmələ gətirərlər. Kiçik hesablar, bəsit zövqlər və mənfəətlər ardınca getdiklərindən, öz zəif ağıllarına görə, Quranı mənfəət və zövqlərinə mane törədəcək, guya kefini pozacaq, guya azadlıqlarını məhdudlaşdıracaq, sadə həyat və ümidlərini dəyişdirəcək, alışıb qurduqları sistemi pozacağını zənn edərlər və primitiv məntiqlə Allahın ayələrinə qarşı çıxmağa çalışarlar.

Bu seqmentin mənsubları Quran ya da din haqqında, ümumiyyətlə, özləri düşünüb tapmadıqları lakin ordan-burdan eşidib mənimsədikləri klassik ağıldankənar qəlibləri irəli

sürərlər. Əksərən, “21-ci əsrdə...”, “bu dövrdə...”, “kosmik dövrdə...”, “qərbdə...” və s. kimi qəliblərlə başlayan cümlələr quraraq Quran haqqında ağılsız və cahil şərhlər edərlər.

Müasir dövrümüzün həyat şərtləri ilə Quranda bildirilən həyat modelinin uyğunlaşmadığını irəli sürərək Quranın hökmləri haqqında həqiqətdənkənar səhv şərhlər edərlər. Məsələn, gündəlik həyat tempi ilə oruc tutmağın, dövrümüzün iqtisadiyyat anlayışı ilə faizin haram olmasının, müasir qadın-kişi əlaqələri ilə zinanın qadağan edilməsinin uyğun gəlmədiyi kimi ağıl və məntiqdən kənar iddialar irəli sürərək Quranın hökmlərini öz aləmlərində tənqid etməyə çalışarlar.

Quranda bildirilən ibadətlər, hökmlər, qadağalar haqqında cahil və səthi məntiqlərdən istifadə edərlər. Hikmətlərini başa düşmədikləri hökmlər, mənalarını qavraya bilmədikləri ayələr haqqında ağılsız müzakirələr edər və heç bir əsaslı məntiq ehtiva etməyən iddialarını israrlı şəkildə müdafiə edirlər.

“Həyatın həqiqətləri” adını verdikləri cəmiyyətin əksəriyyətinin həyat tərzi və dünya görüşünü mütləq doğru qəbul edir və bunları meyar qəbul edərək öz aləmlərində Quranda səhv və ya çatışmazlıq axtarmağa cəhd edərlər. Halbuki, meyar qəbul etdikləri bu anlayışların nə elmi, nə də məntiqi heç bir dəyəri yoxdur. Mütləq həqiqətlər, həyatın həqiqətləri, əsrin tələbləri zənn etdikləri anlayışlar, topluluq psixologiyası ilə bir-birlərini ovutduqları, öz-özlərini aldatdıqları mənasız düşüncələrdir.

Bütün gücünü çoxluqdan alan, çoxluğa tabe olmaqla doğru yolda olduğunu zənn edən bu şüursuz seqmentin həqiqətdə nə qədər azğın bir yolda olduğu Quranda bizə xəbər verilir:

**Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar. (Ənam surəsi, 116)**

# QURANI YANLIŞ ŞƏRH ETMƏ NÜMUNƏLƏRİ

## Cənnətdə şərab içilməsi ilə əlaqədar ayələri səhv başa düşmək

Bir qisim ağılsızların Quranda, guya ziddiyyət olaraq göstərməyə çalışdıqları mövzulardan biri, şərabın dünyada haram edildiyi halda niyə cənnətdə bir ziyafət olaraq verilməsidir. Mövzuyla əlaqədar ayə isə belədir:

**Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir; orada xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar vardır. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən bağışlanma gözləyir. Məgər onlar od içində əbədi qalan və bağırsaqlarını parça-parça edən qaynar su içirdiləcək kimsələr kimi ola bilərlərmi? (Məhəmməd surəsi, 15)**

Əvvəlki bölmələrdə də bəhs etdiyimiz kimi, bu cür bir anlayış çatışmazlığı Quranın tam bilməmək, ağlını işlədə bilməmək, pis niyyətli və qərəzli bir dünyagörüşünə sahib olmaqdan qaynaqlanır. İndi belə ağılsız bir iddianın nə üçün məntiqsiz və əsassız olduğunu bir neçə istiqamətdən təhlil edək:

Birincisi, cənnətdə təklif edilən şərabla dünyadakı şərabın fərqli xüsusiyyətlərə sahib olduğunu aşağıdakı ayələrdən başa düşürük:

**Çeşmə şərabı ilə dolu badələr, bardaqlar və qədəhlərlə ki, ondan başları ağrımaz və məst olmazlar. (Vaqiə surəsi, 18-19)**

Göründüyü kimi, cənnətdə təklif edilən içki dünyadakı şərabın mənfi təsir və xüsusiyyətlərindən təmizlənmiş bir içki növüdür. Ayədə ifadə edildiyi kimi nə baş ağrısı verər, nə də məst edər. Yəni həzz və ləzzət verməsinə baxmayaraq sərxoşedici və narahatlıq verici bir xüsusiyyəti yoxdur. Bu xüsusiyyətlərə sahib bir şərabın da cənnət nemətlərindən biri nemət olmasında ən kiçik bir ziddiyyət yoxdur.

Dünyadakı içki bir çox cəhətdən Quranda pislənmiş, mənfi cəhətləri ifadə edilmiş zərərli bir içkidir. İçkinin zərərini və mənfi cəhətlərini izah edən ayələrdən bəziləri belədir:

**Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici içki də, qumar da, tapınmaq məqsədilə dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan**

**çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici içki və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz buna son qoyacaqsınızmı? (Maidə surəsi, 90-91)**

**Səndən sərxoşedici içki və qumar barəsində soruşurlar. De: "İkisində də həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Amma günahları mənfəətlərindən daha böyükdür". (Bəqərə surəsi, 219)**

Əlbəttə ki, bu dünyada haram buyrulan içkinin Quranda pislənmiş mənfi xüsusiyyətlərinin cənnətdəki içki olması təsəvvür edilə bilməz. Necə ki, Allah başqa bir ayəsində də cənnət içkisini təsvir edərkən bu içkinin dünyadakı içkinin mənfi xüsusiyyətlərinə sahib olmadığını yenidən vurğulayır:

**Onlar üçün çeşmə şərabı ilə dolu piyalələr dolandırılacaqdır. Özü də ağappaq, içənlərə ləzzət verən bir şərab. O şərab nə baş ağrısı verər, nə də ondan məst olarlar. (Saffat surəsi, 45-47)**

Allahın bildirdiyi bu mövzunu öz aləmində ziddiyyətli hesab edən bir kimsənin anlayışından şübhəyə düşməmək qeyri-mümkündür. Cəhalət və azğın bir məqsədlə Qurana yaxınlaşan bir kimsənin ağlının bu dərəcə yox olması, ən aydın mövzuları belə anlamayacaq bir acizliyə düşməsi də Quranın möcüzələrindəndir. Allah bir ayəsində ağlını işlədə bilməyənlərin düşdüyü bu vəziyyəti belə ifadə edir:

**Allahın icazəsi olmadan heç kəs iman gətirə bilməz. Allah anlamayanları qəzəbə uğradar. (Yunis surəsi, 100)**

İkincisi, Quranın ərəbcəsində, bildiyimiz şərab və hər cür spirtli içki mənasını verən "Hamr" kəlməsinin cənnət içkisi mənasında istifadə olunduğu tək ayə əvvəlki səhifələrdə qeyd etdiyimiz Məhəmməd surəsinin 15-ci ayəsidir. Bunun xaricində, cənnətdəki içkilər üçün istifadə edilən "şərab" sözü ərəbcədə hər hansı bir içki mənasını verər. Türkcədə şərab sözü bildiyimiz spirtli içki üçün istifadə edilsə də həqiqətdə ərəbcədə içmək mənasını verən "şerebe" kökündən gəlmişdir və hər cür spirtsiz içki üçün istifadə edilə bilər. Buradan da cənnət içkisinin fərqli bir içki olduğu aydın olur. Yəni Qurandakı cənnət ayələrində keçən "şərab" sözünün türkcədə istifadə edilən şərabla əlaqəsi yoxdur. Bu sözün keçdiyi və içki mənasında istifadə edildiyi ayələrdən bəziləri belədir:

**Onlar orada taxtlara dirsəklənib çoxlu-çoxlu meyvələr və cənnətə məxsus içkilər istəyəcəklər. (Sad surəsi, 51)**

**Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. Onların qoluna gümüş bilərziklər bağlanacaq. Onların Rəbbi onlara tərtəmiz şərab içirdəcəkdir. (İnsan surəsi, 21)**

## Şərab mövzusu ilə əlaqədar olan başqa bir yanlış şərh etmə

Allah Nəhl surəsinin 67-ci ayəsində; **"Siz xurma ağacının meyvələrindən və üzümlərdən sərxoşedici içki və xeyirli ruzi hazırlayırsınız..."** deyə buyurur.

Ağlını işlətməyən bəzi cahil kəslər burada öz aləmlərində şərabın tərifləndiyini, haram olan bir şeyin təriflənməsinin də ziddiyyətli olduğunu deyərlər. Hər şeydən əvvəl, diqqətlə baxdıqda ayədə şərabın təriflənməsi kimi bir vəziyyət yoxdur. Ayədə təriflənən qisim xurmaların və üzümlərin şəxsən özlərinin gözəl ruzi olduqlarıdır. Ayənin birinci hissəsində bəhs edilən isə insanların bunlardan əldə etdikləri sərxoşedici içkidir ki, onsuz da Quranın bir çox yerində bu içkinin zərərləri sayılmış və pislənilmişdir. Ayədən şərab içməyə, sərxoş olmağa bir təşviq, bir tərif mənasının olduğunu demək də ortada qərəzli bir yanaşma ya da əhəmiyyətli bir anlayış və mühakimə yanlışlığı olduğunu göstərir.

Bu ayədə əhəmiyyətli bir həqiqətə diqqət çəkilir: Allahın ruzi olaraq verdiyi bir nemət, istənildiyində müsbət və faydalı olaraq istifadə edilə bilər, istənildiyində də sui-istifadə edilərək zərərli işlərdə istifadə edilə bilər. Yəni eyni nemət, məqsədə görə gözəllik ya da pislik halına gətirilə bilər, halal və ya haram olaraq istifadə edilə bilər. Burada da imtahan dünyasının bu əsl həqiqəti üzüm və şərabdakı təzad nümunəsiylə bildirilir. Allahın nemət olaraq yaratdığı üzüm, sağlamlıq baxımından nə qədər faydalı, qida mənbəyi, ləzzətli bir məhsul isə, bundan o dərəcə zərərli, insan bədəninə daimi və mənfi təsirləri olan şərab da istehsal edilə bilər. Eyni həqiqət mal, pul, gözəllik, zəka, məqam, mövqe, güc, iqtidar kimi bir çox nemət üçün də məqbuldur. Bu nemətlər Allahın bəyəndiyi xeyirli işlərdə istifadə edilə biləcəyi kimi, Allahın razı olmadığı, zərərli, mənfi məqsədlər üçün də istifadə edilə bilər. Göründüyü kimi, Allah eyni neməti bir çox hikmət daxilində müxtəlif yaradılışlara çevirə bilər. Bu həqiqəti də eyni üstün hikmətlə tək bir ayədə xəbər verə bilər. Düşünüb dərk edən kəslər də Allahın ayələrindəki hikmətləri görər və başa düşərlər. Necə ki, eyni ayənin davamındakı, "...**Həqiqətən, bunda anlayan adamlar üçün dəlillər vardır.**" (Nəhl surəsi, 67) ifadəsində də buna diqqət çəkilir.

Qısacası, ayə açıq bir şüur və diqqətlə oxunduğu təqdirdə ortada hər hansı bir

ziddiyyətin olmadığı asanlıqla görülər. Artıq bu dərəcə aydın mövzularda ziddiyyət axtarmağa cəhd göstərilməsi da inkar edənlərin Quran qarşısında düşdükləri çarəsizliyi göstərməyə kifayətdir.

## "Donuz əti bugünkü sağlamlıq şərtlərində yeyilə bilər" yanılması

Donuz ətinin Quran endirildiyi dövrdə yeyilməsinin sağlamlığa zərərli bir çox istiqamətləri olduğu kimi, bu gün də yeyilməsinin sağlamlığa zərərli olan müxtəlif istiqamətləri vardır. Belə ki, donuz, hər nə qədər təmiz fermalarda, qulluq göstərilən mühitlərdə saxlanılsa da, öz zibilini yeyən bir heyvandır. İstər zibili ilə qidalanması, istərsə də bioloji quruluşu səbəbiylə donuzun orqanizmi digər heyvanlara nisbətən yüksək dozalarda antitel ifraz edər. Yenə donuzun bədənində digər heyvanlara və insana nisbətən çox yüksək dozada böyümə hormonu ifraz olunar. Təbii olaraq, bu yüksək dozadakı antitellər və böyümə hormonu qan dövranı yolu ilə donuzun əzələ toxumasına da keçərək toplanılır. Bundan əlavə, donuz əti çox yüksək nisbətdə xolesterol və lipidə malikdir. Bunların nəticəsində bütün bu həddindən artıq səviyyədəki antitellər, hormonlar, xolesterol və lipidlərlə dolu olan donuz ətinin insan sağlamlığı baxımından əhəmiyyətli bir təhdid olduğu elmi olaraq sübut edilmişdir.

Bu gün donuz ətinin sıx olaraq istehlak edildiyi ABŞ, Almaniya kimi ölkələrin əhalisinin əhəmiyyətli bir hissəsini meydana gətirən normadan artıq çox kök insanların varlığı, artıq vərdiş edilmiş bir mənzərədir. Donuz ətinə əsaslanan bir qidalanma nəticəsində həddindən artıq böyümə hormonuna məruz qalan insan orqanizmi əvvəlcə həddindən artıq kökəlir, sonra da bədəni dəyişmələrə, deformasiyalara məruz qalır.

Bunlardan başqa donuz ətindəki sağlamlığa zərərli maddələrdən biri də "trişin" mikrobudur. İnsan bədəninə girdiyində birbaşa ürək əzələlərinə yerləşərək ölümcül təhlükə yaradan trişin mikrobuna donuz ətində tez-tez rast gəlinir. Müasir dövrün texnologiyasıyla trişinli donuzları texniki olaraq təsbit etmək mümkünsə də əvvəlki əsrlərdə belə bir üsul məlum deyildi. Buna görə də donuz əti yeyən hər kəs üçün trişin mikrobunu tutma və ölümlə üz-üzə gəlmək riski var idi.

Göründüyü kimi bütün bu səbəblər donuz ətinin müsəlmanlara qadağan edilməsinin hikmətlərindən bəzilərini göstərir. Hər şərtdə sağlamlığa zərərli təsirlərini davam etdirən, nəzarətsiz istehsalında isə ölümcül belə olan donuz ətinin yeyilməsi qadağan edilərək belə bir təhlükəyə qarşı əvvəlcədən əsaslı və qəti bir tədbir alınmışdır.

Nə var ki, burada çox əhəmiyyətli bir məqamı xatırlatmaqda fayda vardır. Bir şeyin haram edilməsi üçün mütləq sağlamlığa və ya insanlara zərərli olması lazım deyildir. Bu mövzu bir çox insanın diqqətindən kənarda qalan, pis niyyətlilərin də insanların məlumatsızlıqlarından faydalanaraq bununla ağıllarını qarışdırmaq üçün cəhd etdikləri bir

mövzudur. Yəni, “bunun nə qorxusu və nə zərəri vardır ki, Quran qadağan edir” şəklindəki, düşünüb fikirləşmədən irəli sürülən cahil iddialar həqiqətdə Quranın hökmlərindəki hikmət və məqsəddən xəbərsiz olmaqdan qaynaqlanır. Ağıllarını işlədə bilməyən insanlar mövzuları dar və məhdud qəliblər daxilində qəbul etməyə çalışdıqlarından, daha geniş mənada yer alan hikmətləri və bunların məntiqlərini qavraya bilməzlər.

Allah çox daha müxtəlif səbəblərlə də hər hansı bir şeyi insanlara qadağan edə bilər. İnsanları sınamaq üçün, Özündən həqiqətən qorxan və Ona səmimi olaraq itaət edənlərin bilinməsi, saxtakarların da aşkar edilməsi üçün zərəri olmayan bir şey də qadağan edilə bilər. Cəza və ibrət məqsədi ilə ya da nemətlərin dəyərinin xatırlanması və şükrə vəsilə olması üçün də bir mövzuda qadağa qoyula bilər.

Allah Quranda, Allahdan başqası adına kəsilmiş heyvanı yeməyi də haram buyurduğunu ifadə etmişdir:

**O sizə ölü heyvanı, qanı, donuz ətini və Allahdan başqası üçün kəsiləni haram etmişdir. Hər kəs harama meyl etmədən və həddi aşmadan bunlardan yeməyə məcbur olarsa, bu ona günah hesab edilməz. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Bəqərə surəsi, 173)**

Eyni çəmənlikdə böyüyən iki inəkdən biri Allah adına kəsilsə yeyilməsi halal, digəri Allahdan başqası adına kəsilsə yeyilməsi haram olar. Bu hökmün bir hikməti də insanlar üçün bir sınaq vəsiləsi olmasıdır. Quranda əvvəlki dövrlərdə yəhudilərə qoyulan, “Şənbə günü işləmək qadağası”nın onların imtahanı üçün olduğu isə belə bildirilir:

**Bir də onlardan dəniz sahilindəki şəhəri(n məruz qaldığı nəticəni) soruş. O zaman onlar şənbə günü (qadağasını pozub) həddi aşmışdılar. “Şənbə günü işləmək qadağasına əməl etdiklərində, balıqları onlara açıq şəkildə axın-axın gəlir,” şənbə günü işləmək qadağasına əməl etmədiklərində isə onlara tərəf gəlmirdilər. Biz, Günah etdiklərinə görə onları belə imtahana çəkirdik. (Əraf surəsi, 163)**

Halbuki, bir dövrdə yəhudilərə qadağan edilən Şənbə günü işləmək, Quranda müsəlmanlara qadağan edilməmişdir. Bu da, qadağanın hər hansı bir ictimai problemdən və ya xüsusilə o gün şəhərə axın edən balıqların sağlamlığa zərərli olmasından dolayı deyil, imtahan məqsədilə qoyulduğunu göstərir. Necə ki, haqqında danışılan qövmün qadağanı pozaraq imtahanı keçə bilmədikləri də ayədə ifadə edilmişdir. Belə bir qadağa o qövmün insanlarının imanlarındakı səmimiyyətsizlik və Allahdan lazım olduğu kimi qorxub

çəkinmədiklərini aşkar etmiş olurdu. Quranda möminlər üçün qoyulan bir qadağa da bənzər bir hikmət, bir imtahan məqsədi daşıyır. Ayələrdə belə buyrulur:

**Ey iman gətirənlər! Allah sizi əllərinizin və nizələrinizin çata biləcəyi bir ovla imtahan edəcək ki, Allah, gizlində (yaxud Onun Özünü görmədən) kimin Ondan qorxduğunu üzə çıxarsın. Bundan sonra həddi aşan kimsə üçün isə ağrılı-acılı bir əzab hazırlanmışdır. Ey iman gətirənlər! İhramda ikən ovu öldürməyin. Sizlərdən kim onu qəsdən öldürərsə, kəffarəsi öldürdüyünə bənzər bir qurbanlıq heyvanı əvəz ödəməkdir. Buna sizlərdən iki ədalətli kişi qərar verməli, sonra da həmin qurbanlıq heyvan Kəbəyə çatdırılmalıdır. Yaxud kəffarə olaraq kasıbları yedirtməli, yaxud da buna bərabər oruc tutmalıdır ki, öz işinin zərərini dadsın. Allah olub-keçənləri bağışlamışdır. Hər kim yenə bu günaha qayıtsa, Allah ondan intiqam alar. Allah Qüdrətlidir, intiqam almağa qadirdir. Həm sizin, həm də səfərdə olanların faydalanması üçün dəniz ovu və onu yemək sizə halal edildi. İhramda olduğunuz müddətdə isə quruda ov etmək sizə haram edildi. Hüzuruna toplanılacağınız Allahdan qorxun! (Maidə surəsi, 94-96)**

Ayələrdə bu qadağanın hikməti açıqca ifadə edilmişdir: "...**gizlində (yaxud Onun Özünü görmədən) kimin Ondan qorxduğunu üzə çıxarsın...**". Əllərin və nizələrin bu ova asanlıqla çata bilməsi də bu imtahanın bir parçasıdır.

Allahın bildirdiyi qadağaların bir digər hikməti də onların rəftar və davranışlarındakı pozğunluq, azğınlıq səbəbi ilə cəzalandırılmaları və tövbə edib doğru yola qayıtmalarının təmin edilməsidir. Əvvəlki dövrlərdə yəhudilərə qoyulan bəzi qadağalar da bunun bir nümunəsidir:

**Yəhudilərə dırnaqlı heyvanların hamısını haram etdik. İnək və qoyunun bel sütunlarına və ya bağırsaqlarına yapışan, yaxud sümüklərə qarışan yağlar istisna olmaqla, onların piylərini də haram etdik. Bu, həddi aşdıqlarına görə onlara verdiyimiz cəzadır. Şübhəsiz ki, Biz doğru danışanlarıq. (Ənam surəsi, 146)**

Bura qədər aydın olduğu kimi Allahın haram buyurduğu şeylərin qadağan edilməsindən bir çox hikmət və məqsəd tapmaq olar. Bu hikməti yalnız qadağan edilən şeyin zərərli ya da zərərsiz olmasıyla məhdudlaşdırmaq Quranı lazım olduğu kimi bilib anlamamaqdan, düşünməməkdən qaynaqlanır.

Donuz ətinin qadağan edilməsinin də birdən çox hikməti vardır. Yaşadığımız əsrə qədər donuz ətinin insan sağlamlığını birbaşa təhdid edən zərərləri olduğuna dair şübhə

yoxdur. Bugünkü tibbi cihazlarla, bioloji sınaqlarla konkret şəkildə ortaya qoyulmuş bu zərərə qarşılıq, hələ heç kimin mikrob, bakteriya, trişin, hormon, antitel kimi anlayışlardan xəbərsiz olduğu 14-cü əsrdə endirilən Quranda qəti tədbir alınması da eyni zamanda bu ilahi Kitabın möcüzələrindəndir. Bu gün də donuz istehsalında alınan hər cür tədbir və sınaqlara baxmayaraq, donuz ətinin fizioloji olaraq insan bədəninə uyğun bir qida növü olmadığı, insan sağlamlığına qəti zərəri olan bir ət növü olduğu bilinir. Buna baxmayaraq, istehsalının asanlığı və xərcinin azlığı səbəbiylə dünya səviyyəsində geniş olaraq istehlak edilir. Əslində, diqqət edildiyində donuz istehsalının bu dərəcə cazibədar olmasının, keçmişdə yəhudilərə işləmək qadağası olan Şənbə günü balıqların axın etməsindən fərqi yoxdur. Yer üzündə quzu, qoyun, toyuq, mal əti, saysız quş növü, ov heyvanı və daha bir çox növdə yeyilə biləcək, olduqca ləzzətli heyvan əti varkən Allahın haram buyurduğu donuz ətinə tamah etmənin məqsədli bir mövqe olacağı açıqdır.

Quranda bildirilən səbəblərdən başqa hər nə məqsədlə olursa olsun donuz ətini yemək Quranın etibarlı olduğu qiyamətə qədər haramdır. Bundan 100 il sonra, tamamilə zərərsiz bir hala gətirilsə belə, donuz əti yeməmək yenə möminlər üçün bir ibadət vəsiləsi olacaqdır. O vaxt da bunu yeyib-yeməmək yenə inkar edən ağılsızlar üçün bir fitnə-sınaqdan keçirmə mövzusu olacaqdır.

## Hekayələrdəki hikmətləri başa düşməmək

Allah Quranda müxtəlif mövzuları nümunə və bənzətmələrlə izah edir. Bu nümunə və bənzətmələr də əksərən əvvəllər gəlmiş peyğəmbərlərin və ya elçilərin həyatlarından və ya Quranın endirilməsindən əvvəl yaşanmış müxtəlif hadisələrdən nəql edilən məlumatlardır. Bu səbəbdən də Quranda yer alan bu cür hekayələr insanlar üçün bir çox ibrət, nümunə, işarə və hikmətlər daşıyar.

Bu İlahi hikməti qavraya bilməyən kəslərin hər dövrdə Quran haqqındakı cahilliklərini göstərən sözlərini Allah Quranda belə bildirir:

**Ayələrimiz onlara oxunduğu zaman deyərlər: "Artıq eşitdik. İstəsək, biz də buna bənzərini deyə bilərik. Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyildir". (Ənfal surəsi, 31)**

**Onlardan: "Rəbbiniz peyğəmbərinə nə nazil etmişdir?" – deyə soruşduqda, onlar: "Bu, keçmişdəkilərin nağıllarıdır!" – deyərlər. (Nəhl surəsi, 24)**

Halbuki ağlını işlədə bilməyənlərin nağıl zənn etdikləri hekayələr, möminlərə yol

göstərən saysız-hesabsız dəyərli məlumat və nümunələrlə doludur. Allah hər dövrdə möminlərin başlarına gələ biləcək hər cür hadisə və şərti əvvəlki peyğəmbərlər və qövmlərin yaşadıqlarından müxtəlif nümunələr verərək izah edir. Bu hekayələr saysız-hesabsız İlahi hikmət ehtiva edərlər; bunlardan bir neçəsini belə saya bilərik:

- Allahın möminlərin və inkar edənlərin üzərində hökm sürən və dünya yaranandan bəri dəyişməyən qanunlarını göstərmək;

- Möminlərin hər dövrdə qarşılaşdığı hadisələr, imtahanlar, çətinliklər qarşısında nə edəcəklərini, necə davranacaqlarını, nə cür reaksiyalar vermələri lazım olduğunu, necə bir əhval-ruhiyyə və əxlaq nümunəsi nümayiş etdirəcəklərini, Allaha qarşı necə bir rəftar və üslub içində olmaları lazım olduğunu təsvir edib izah edir. Hər mövzuda möminlərə yol göstərmək.

- Möminlərin şövqlərini artırmaq.

- İnkar edənləri xəbərdar edib doğru yola dəvət etmək və bu dəvətə tabe olmayanların ziyanla nəticələnən aqibətlərini xatırlatmaq.

- Qiyamətə qədər Qurana tabe olan möminləri dünyada və axirətdə gözləyən gözəl aqibət ilə müjdələmək.

Bu hikmətləri dərk edəcək ağıl və qavrayışdan məhrum olan insanlar isə öz zəif ağıllarına görə Quranı bir nağıl kitabı kimi görmək yanılmasına düşər, hekayələrdəki hikmətləri görə bilməzlər. Bu insanların hər cür öyüd-nəsihət və izahata qarşı olduqları, sabit fikirli, hissləri yox olmuş insanlar olduqları ayələrdə belə ifadə edilir:

**Aralarında səni dinləyənlər də vardır. Quranı anlamasınlar deyə onların qəlblərinə pərdə çəkdik, qulaqlarına da tıxac vurduq. Onlar istənilən ayəni görsələr belə, yenə də ona inanmazlar. Hətta sənin yanına gəldikdə səninlə mübahisə edirlər. Kafir olanlar: "Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyildir" – deyərlər. (Ənam surəsi, 25)**

Bu cür insanlar bu davranışları ilə Qurana və ya İslama bir zərər verə bilməzlər. Özləri hər nə qədər Qurana zərər vermək, insanları din əxlaqından uzaqlaşdırmaq və ya mane olmaq istəsələr də, həqiqətdə yeganə zərəri hiss etmədən özlərinə edərlər. Bu həqiqət yuxarıdakı ayənin davamında belə bildirilir:

**Onlar həm insanları haqdan uzaqlaşdırır, həm də özləri ondan uzaqlaşırlar. Onlar ancaq özlərini həlak edir və bunu hiss etmirlər. (Ənam surəsi, 26)**

İçində olduqları səhvi dərk etdiklərində isə ox yaydan çıxmış, çox gecikmişdirlər, artıq geriyə qayıtmaq və səhvlərini düzəltmək imkanı yoxdur. Bu vəziyyət ayədə belə xəbər verilir:

**Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq" – dediklərini görəydin! (Ənam surəsi, 27)**

## Quranı digər ilahi kitabların bənzəri zənn etmə yanılması

Quran, Allahın bütün insanlara xəbərdaredici və öyüd verici olaraq endirdiyi, qiyamətə qədər etibarlı olan yeganə haqq kitabdır. Qurandan əvvəl göndərilən kitablar insanlar tərəfindən təhrif edilmişdir. Ancaq Quran, Allah tərəfindən qorunmuşdur. Bu həqiqət **"Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq."** (Hicr surəsi, 9) ayəsiylə xəbər verilmişdir.

Quran haqqında ağılsızların irəli sürdükləri əsassız iddiaların ən geniş yayılmışlarından biri də, mübarək Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in, Quranı Kitabi Müqəddəsdən (Tövrat və İncil) ilham alaraq yazdığı yalanıdır. Bu, tamamilə xəyali və heç bir əsası olmayan iddiaya öz zəif ağıllarına görə Quran ilə Müqəddəs Kitab arasındakı bəzi oxşarlıqları göstərərlər.

Halbuki oxşarlıqların olması olduqca təbii bir vəziyyətdir. Çünki hamısı (Tövrat və İncilin təhrif edilmiş hissələri istisna olmaqla) Uca Rəbbimiz Allahın sözüdür. Allahın hər dövrdə göndərdiyi dinlərdə, Allahın varlığı, birliyi, Allahın sifətləri, axirət inancı, iman gətirənlərin, inkar edənlərin, münafiqlərin xüsusiyyətləri, əvvəlki ümmətlərin vəziyyəti kimi əsas mövzular, verilən öyüd-nəsihət və çəkindirilən xüsuslar, əxlaqi meyarlar eynidir. Bunların bir qismi, yəhudilik və xristianlıqda olduğu kimi, daha sonra təhrifə məruz qalmışdır. Quranın və hədislərin əsasında qiymət verildiyində, hansı hissələrin təhrifə məruz qaldığı, hansı hissələrin təhrif edilmədən qaldığı asanlıqla aydın olar. Bu səbəbdən də, əvvəlki kitablarda çatdırılan mövzularla Quranda izah edilənlər arasında oxşarlıq və paralellik olması heç də irad tutulacaq bir vəziyyət deyildir. Allah ayələrdə bu şəkildə bildirir:

**Şübhəsiz ki, o, keçmiş ümmətlərin kitablarında da xatırlanır. Məgər İsrail oğullarından olan alimlərin onu bilmələri bunlar üçün bir dəlil deyilmi? (Şuəra surəsi, 196-197)**

**Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Biz sizdən əvvəl Kitab verilənlərə də, sizə də Allahdan qorxmanızı buyurduq. (Nisa surəsi, 131)**

Həmçinin, Rəbbimiz Quranın, həqiqi Tövrat və İncili təsdiqləyici bir kitab olduğunu da bildirir:

**Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik. Elə isə onların arasında Allahın sənə nazil etdiyi Kitabla hökm ver. Sənə gələn haqdan ayrılıb onların istəklərinə tabe olma. Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. (Maidə surəsi, 48)**

Özündən əvvəlki kitabları təsdiqləmək xüsusiyyəti təkcə Qurana deyil, digər haqq kitablara da verilmişdir. Hz. İsaya göndərilən İncil də, özündən əvvəl hz. Musaya endirilən Tövratı təsdiqləyir. Bu həqiqət Quranda belə xəbər verilir:

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik. (Maidə surəsi, 46)**

Bu, Allahın bir qanunudur və bu qanun əlbəttə ki, Quran üçün də məqbuldur. Quranda, digər İlahi dinlərin kitablarında yer alan ortaq mövzuların bir qismindən bəhs edilmişdir. Həcc surəsinin 26-cı və 27-ci ayələrində həcc ibadətinin hz. İbrahimlə başladığı, Ənbiya surəsinin 72-ci və 73-cü ayələrində namaz və zəkatın Peyğəmbərimiz (s.ə.v)-in dövründən əvvəl də fərz buyrulduğu, Muminun surəsi 51-ci ayədə digər elçilərə də saleh əməllər etməyinin əmr edildiyi bildirilmişdir. Ayələrdə belə buyrulur:

**Bir zaman Biz İbrahimə evin (Kəbənin) yerini nişan verib: “Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku və səcdə edənlər üçün təmizlə!” - demişdik. İnsanlar arasında həcci elan et ki, onlar sənin yanına piyada və ya hər bir uzaq yoldan gələn yorğun düşmüş dəvələr üstündə gəlsinlər. (Həcc surəsi, 26-27)**

**Biz ona İshaqı və bir də Yaqubu bağışlayıb hamısını əməlisaleh insanlar etdik. Biz Öz hökmümüzlə onları doğru yolu göstərən rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər. (Ənbiya surəsi, 72-73)**

**Ey elçilər! Halal nemətlərdən yeyin və yaxşı işlər görün! Mən, həqiqətən, sizin nə**

**etdiklərinizi bilirəm! (Müminun surəsi, 51)**

Bura qədər izah etdiklərimizdən, nə üçün Quranla əvvəlki kitablar arasında oxşarlıqların olduğu və bunun nə qədər normal bir hal olduğu asanlıqla aydın olur. Bu səbəbdən, bu oxşarlıqların olması Quranı Peyğəmbərimiz (s.ə.v)-in yazmadığını, əksinə bütün İlahi dinlərin kitablarının Allahın sözü olduğunu sübut edir. Bu da həm Quranda bildirilən, həm də ağıl və məntiqin təsdiq etdiyi bir həqiqətdir.

Allah, Quranın Öz Qatından endirilmiş haqq kitab olduğunu və bu həqiqəti başa düşə bilməyən insanların vəziyyətini ayələrində belə xəbər vermişdir:

**Bu Quran Allahdandır, Ondan başqası tərəfindən uydurula bilməz. Lakin o, özündən əvvəlkiləri təsdiqləyən və aləmlərin Rəbbi tərəfindən nazil edilmiş, içində də heç bir şəkk-şübhə olmayan kitabları müfəssəl izah edəndir. Yoxsa: "Məhəmməd onu özündən uydurdu!" - deyirlər. De: "Əgər doğru danışırsınızsa, ona bənzər bir surə də siz gətirin və Allahdan başqa, kimi bacarırsınızsa, köməyə çağırın!" Xeyr! Onlar elmini qavraya bilmədikləri və hələ yozumu onlara gəlməmiş bir şeyi (Quranı) yalan hesab etdilər. Onlardan əvvəlkilər də yalan hesab etmişdilər. Bir gör zalımların aqibəti necə oldu. (Yunis surəsi, 37-39)**

Həmçinin, bu böhtanı atanların iddialarını tam mənasıyla etibarsız edən çox əhəmiyyətli bir həqiqət də vardır: Hz. Məhəmməd (s.ə.v) ümmidir. Yəni oxumağı və yazmağı bilmir. Peyğəmbərimiz (s.ə.v)-in ümmi olması onun peyğəmbərliyinin ən böyük dəlillərindəndir. Üstəlik, həyatında Tövratı və ya İncili oxumuş ya da tədqiq etmiş, onlar haqqında məlumat sahibi də olmamışdır. Peyğəmbərimiz (s.ə.v)-in əvvəllər bu kitabları oxumaması, yazmaması, bir tədqiqat aparmaması, hazırlıq, ya da bir iş görməməsi, qövmünün də yaxından şahid olduğu bir həqiqət idi. Bu mövzuda heç kimin bir şübhəsi yox idi. *Siret ensiklopediyasında* bu həqiqət belə izah edilir:

*Hz. Məhəmməd (s.ə.v) bir ümmi idi; yazıb oxumağı bilməzdi. Aralarında doğulub böyüdüyü ailə üzvləri, yaxınları və məkkəlilər, bütün həyatı boyunca nə bir kitaba əl vurduğunu, nə də əlinin qələm tutduğunu görmüşlər. Vəziyyət belə ikən ona vəhy edilmiş elm dəryası Quran, öz özlüyündə bir möcüzədir. Çünki bu kitabda keçmişdəki bütün İlahi kitabların əsas mövzuları, əvvəlki peyğəmbərin hekayələri, dinlər və bunların gətirdiyi inanclar, köhnə tarix, mədəniyyət və mədəniyyət ilə iqtisadiyyat, siyasət və əxlaq mövzusundakı məlumat xəzinələri vardır. Halbuki, hz. Məhəmməd (s.ə.v) bunların hamısıdan tamamilə xəbərsiz idi. Özünün, ümmi olmasına baxmayaraq belə bir Kitabla iman gətirməyənlərin qarşısına çıxması onsuz da peyğəmbərliyinin ən böyük dəlili idi... (Siret Ansiklopedisi, Hazırlayan: Afzalur Rahman- Londra Siret Vakfı Başkanı, s.162)*

Quranda, inkarçılar üçün də çox aydın və bilinən bir həqiqət olan Peyğəmbərimiz (s.ə.v)-in bu xüsusiyyəti, onlara qarşı bir dəlil olaraq ifadə edilmişdir:

**Sən bundan əvvəl nə bir Kitab oxuya bilirdin, nə də onu əlinlə yaza bilirdin. Belə olsaydı, batilə uyanlar şübhəyə düşərdilər. (Ənkəbut surəsi, 48)**

Məşhur tərcüməçi və İslam alimi Cəlaleyn ayəni belə təfsir edir:

Sən bundan, yəni Qurandan əvvəl kitab oxuyan deyildin. Onu əlinlə də yazmadın, elə olsaydı, yəni savadlı olsaydın, batili müdafiə edənlər, haqqında şübhəyə düşər, tərəddüd edərdilər. Və, "Tövratda bizə izah edilən Peyğəmbər ümmi olub savadı yoxdur" deyərdilər. *(Celaleyn Tefsiri Tercümesi, Tercüme İbrahim Serdar, Yusuf Şensoy, Fatih Enes Yayınevi, İstanbul, 1997, 3-cü cild, s. 1432-1433)*

## Qurandakı elmi həqiqətlərin qədim mədəniyyətlərin məlumatlarından tərtib olunduğu yanılması

Quranı ağılsızca qiymətləndirənlər tərəfindən irəli sürülən bir başqa iddiaya da diqqət yetirmək lazımdır. Quranda yer alan elmi mövzulardakı xəbərlərin, dövrün elm anlayışından əsrlərlə sonrakı dövrdə məlum olduğunu əvvəlki hissələrdə də ifadə etmişdik. Bu, öz-özlüyündə Quranın çox böyük bir möcüzəsidir. Bu həqiqəti açıq-aşkar görmələrinə baxmayaraq inkarda israr edənlər, bu ilahi möcüzəni insanlardan gizlətməyə səy göstərərək Peyğəmbərimiz (s.ə.v)-in, Qurandakı elmi məlumatları dövrün inkişaf etmiş mədəniyyətlərinin mənbələrindən tərtib etdiyini iddia edirlər. Bu iddianın bir çox cəhətdən etibarsız olduğu məlumdur. Əvvəlcə, Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in bütün həyatı boyu belə bir tədqiqat aparmadığı hər kəs tərəfindən bilinir. Bunun əksini iddia edən də olmamışdır. Peyğəmbərimiz (s.ə.v)-in tarixdəki inkişaf etmiş sivilizasiyaların dilini bilmədiyi məlumdur.

Digər tərəfdən, o dövrdə belə bir tədqiqat aparmaq istəyən hər bir şəxs, böyük çətinliklərlə üz-üzə gələrdi. Şübhəsiz ki, 7-ci əsr Ərəbistanında böyük kitabxanalar, yazılı mətbuat, kitabxanaçılar və ya internet şəbəkəsi kimi məlumata çatmağı asanlaşdıran imkanlar mövcud deyildi. Müasir dövrün şərtlərində belə, məsələn, qədim Misirin embriologiya məlumatını tədqiq etmək istəyən bir insanın işi asan deyildir. Misir sivilizasiyasının quruluşu dövrümüzdən təxminən 5000 il əvvələ gedib çıxır. Əvvəlki dövrlərdən bu günə çatan yazılı qaynaqlar məhduddur, üstəlik bunların hamısının tərcümələri də mövcud deyildir. Tərcümə edilə biləni isə, olduqca xüsusi məlumatlar ehtiva etdiklərindən hər yerdə tapılmazlar. Həmçinin, bu tərcümələri qavraya bilmək və şərh etmək

üçün çox təfərrüatlı bir tarix məlumatına da yiyələnmək vacibdir. Qısacası, belə bir tədqiqat dövrümüzün şərtlərində belə olduqca çətindir.

Qaldı ki, əvvəlki mədəniyyətlərdən miras qalan bütün məlumatların hamısının doğru və etibarlı olduqları kimi bir vəziyyət də mümkün deyil. Aralarında bir çox səhv məlumatlar, batil inanclar, xurafatlar da vardır. Əgər ağılsızların iddia etdikləri kimi Quranın elmi ayələrinin əvvəlki illərin mədəniyyətlərindən toplanılması kimi bir vəziyyət olsaydı, əlbəttə, aralarında səhv ya da əsassız məlumatların da olması lazım idi. Halbuki, Quran bu cür çatışmazlıqlardan münəzzəhdir. İçindəki elmi ayələrin hamısının müasir elm tərəfindən qəti şəkildə doğru olduqları aşkar edilmişdir. Bu aydın həqiqət, **"Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar."** (Nisa surəsi, 82) ayəsində də bildirilir.

Buna görə də Qurandakı elmi ayələrin, Peyğəmbərimiz (s.ə.v) tərəfindən başqa mədəniyyətlərin qaynaqlarından əldə olunduğu iddiası da, digər iddialar kimi tamamilə etibarsızdır. Belə insanların mövcudluğu və onlara verilməsi lazım olan cavab Quranda belə bildirilmişdir:

**Kafirlər: "Bu, Məhəmmədin uydurduğu yalandan başqa bir şey deyildir. Ona bu işdə başqa adamlar da kömək etmişlər" – dedilər. Beləcə, onlar haqsızlığa və iftiraya yol verdilər. Onlar: "Bu, keçmişdəkilərin nağıllarıdır. O bunları başqasına yazdırmışdır. Bunlar səhər-axşam onun özünə oxunur" – dedilər. De: "Onu göylərdə və yerdə olan sirləri bilən Allah nazil etmişdir. Həqiqətən, O, Bağışlayandır, Rəhmlidir!" (Furqan surəsi, 4-6)**

## Quran ərəblərə göndərilmişdir yanılması

İnkarçıların, insanları Qurandan ayırmaq və uzaqlaşdırmaq üçün iddia etdikləri sayıqlamalardan biri də Quranın yalnız ərəblərə endirildiyi və Qurana tabe olmaqdan məsul olanın yalnız ərəblər olduğu iddiasıdır. Ancaq Quranı bir dəfə oxumuş kimsə belə bir iddianın nə qədər axmaq və yersiz olduğunu asanlıqla dərk edəcək.

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in bütün insanlara göndərilmiş müqəddəs bir peyğəmbər olduğu və Quran hökmlərindən qiyamətə qədər bütün insanların məsul olduğu bir çox ayədə bildirilmişdir. Bu ayələrdən bir neçəsi yuxarıdakı iddianın mənasızlığını göstərmək üçün kifayətdir:

**Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən bir peyğəmbər kimi göndərdik. Lakin insanların çoxu bunu bilmir. (Səba surəsi, 28)**

**De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm. Göylərin və**

**yerin hökmranlığı Ona məxsusdur... (Əraf surəsi, 158)**

İnkarçılar, cahil insanların başlarını qarışdırmaq və fitnə çıxarmaq üçün uydurduqları bu iddianı aşağıdakı Quran ayəsi ilə əsaslandırmağa cəhd edərlər:

**Biz hər bir elçini ancaq öz xalqının dilində danışan göndərdik ki, haqqı onlara bəyan etsin. Allah istədiyini sapdırır, istədiyini də doğru yola yönəldir. O, Qüdrətlidir, Müdrikdir. (İbrahim surəsi, 4)**

Ayə çox aydındır. Elçinin göndərildiyi cəmiyyət hansı dili danışırsa elçi də eyni dili danışır. Bu, tarixən belə olmuşdur. Ancaq belə olduğu təqdirdə, elçilər Allahın vəhyini ətraflarındakı insanlara tam və qüsursuz şəkildə çatdıra bilərlər. Buna görə də elçiyə vəhy edilən kitab da elçinin və qövmünün dilində göndərilir. Bundan daha təbii bir şey ola bilməz. Ancaq inkarçılar hər nə olursa olsun, dinə tabe olmamaq üçün bu cür bəhanələr irəli sürərlər. Onların bu zidd məntiqləri Quranda belə xəbər verilmişdir:

**Əgər Biz onu yad bir dildə Quran etsəydik, onlar deyərdilər: “Nə üçün onun ayələri müfəssəl izah edilməmişdir? Yad dil və ərəb peyğəmbər?!” De: “O, iman gətirənlərə doğru yol göstəricisi və şəfadır”. İman gətirməyənlərin isə qulaqlarında tıxac vardır. Onlar ona qarşı kordurlar. Onlar sanki uzaq bir yerdən çağırılırlar. (Fussilət surəsi, 44)**

Göndərilən bir peyğəmbərin qövmü ilə eyni dili danışması çox təbiidir, ancaq əlbəttə ki, bu vəziyyət başqa qövmlərə mənsub kəslərin Qurandan məsul olmadıqlarını göstərməz. Quranın mənası hər millətin öz dilinə asanlıqla tərcümə edilə bilər, izah edilə və hökmləri aydın ola bilər. Necə ki, elə də olmuşdur. Bu vəziyyət din əxlaqının öyrənilməsinə və tətbiqinə maneə törədən bir vəziyyət deyildir.

## Allahın öz zatı üçün “Biz” xitabından istifadə etməsini yanlış şərh etmək

Allah Quranın bir çox yerində Öz zatı üçün “Biz” ifadəsindən istifadə edir. Buna nümunə olan bir neçə ayə belədir:

**Biz Musaya Kitab verdik və ondan sonra bir-birinin ardınca elçilər göndərdik. Biz Məryəm oğlu İsaya da açıq-aydın dəlillər verdik və onu müqəddəs ruhla (Cəbrayıl ilə) qüvvətləndirdik. Məgər hər dəfə sizə göndərilən elçi ürəyinizə yatmayan bir şey gətirəndə siz təkəbbür göstərmədinizmi? Onların bir qismini yalançı hesab edib, bir qismini də öldürmədinizmi? (Bəqərə surəsi, 87)**

**Səfeh olanlardan başqa kim İbrahimin dinindən üz çevirər? Biz onu dünyada elçi seçdik. Şübhəsiz ki, o, axirətdə də əməlisalehlərdən olacaqdır. (Bəqərə surəsi, 130)**

Ağlını işlətməyən bəzi kəslər, Quranda Allahın Öz zatı üçün istifadə etdiyi "Biz" xitabının çoxluq mənasında istifadə edildiyini zənn edərək, öz aləmlərində bu sözün istifadə edilməsinin Allahdan başqa ilah olmaması ilə ziddiyyət göstərdiyini iddia edirlər. Beləcə, öz aləmlərində çox böyük bir həqiqəti tapdıqlarını zənn edərlər. Halbuki, olduqca səthi və cahil bir yanaşmadan qaynaqlanan bu səhvin şərhi çox sadədir.

Ərəbcədə "biz" əvəzliyi təkcə çoxluq mənasını bildirmək üçün deyil, böyüklük, heybət, əzəmət, ucalıq, üstün məqam və mövqeni qeyd etmək məqsədiylə tək şəxslər üçün də istifadə edilə bilər. Quranda Allah üçün istifadə edilən "Biz" sözü də bu mənada istifadə edilmişdir.

"Biz" sözünün ərəb dilindəki bu istifadəsindəki məntiq, türkcədə və digər bir çox xarici dildə "siz" sözünün, çoxluğu ifadə etmək üçün deyil, qarşıdakı bir adam üçün nəzakət məqsədilə istifadə edilməsinə bənzər bir məntiqdir.

Allahın Quranda bildirdiyi həqiqət, Allahdan başqa heç bir ilahın olmadığı və yalnız Ona qulluq edilməsi lazım olduğudur. Quranın bir çox ayəsində Allahdan başqa ilah olmadığı həqiqəti dəfələrlə qeyd olunur, bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, bu, həqiqi bir hekayətdir. Allahdan başqa ibadətə layiq olan məbud yoxdur. Şübhəsiz ki, Allah Qüdrətlidir, Müdrikdir. (Al-i İmran surəsi, 62)**

**De: "Mən yalnız xəbərdar edənəm. Tək olan, hər şeyə Qalib gələn Allahdan başqa məbud yoxdur". (Sad surəsi, 65)**

**Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur... (Məhəmməd surəsi, 19)**

Buna görə də, Quranın bir çox yerində Allahın zatı üçün istifadə edilən "Biz" sözünün çoxluq mənasında istifadə olunmadığı, ucaltmaq, möhtərəmlik və müqəddəslik ifadə etmək üçün istifadə olunduğu məlumdur.

Həqiqətdə bu sözün istifadə edilməsindəki hikməti başa düşmək üçün ərəb dilindəki bu xüsusi istifadəni bilməyə belə ehtiyac yoxdur. Azacıq ağlını işlətmə və düşünmə qabiliyyəti olan hər kəs bu sözün seçilməsindəki incəliyi asanlıqla görə bilər. Bunu öz aləmlərində bir müəmma, etiraz mövzusu olaraq görənlərin vəziyyəti, Quran ayələri haqqında mübahisə edənlərin ağıl, qavrayış və zəka səviyyələrinin azlığını göstərməsi baxımından əhəmiyyətli bir nümunədir.

## Quranda verilən nümunələri başa düşməmək

Quran, ancaq dərk edən, düşünən, səmimi insanların mənasını qavraya biləcəyi bir kitabdır. Bu xüsusiyyətlərə sahib olmayan, yəni ağlını işlətməyən, düşünməyi bacarmayan, pis niyyətli insanlar Quranı bir növ idrak edə bilməz, sirlərinə, incəliklərinə nail ola bilməzlər. Allahın Quranda öyüd-nəsihət və ibrət götürməsi üçün verdiyi nümunələrdə də eyni vəziyyət hakimdir. Allah bir ayədə inkar edənlərin Quranda verilən nümunələri dərk edə bilmədiklərini, hətta bu cür nümunələrin onlar üçün bir doğru yoldan çıxma vəsiləsi olduğunu bildirər:

**Həqiqətən, Allah ağcaqanadı və (istər böyüklükdə, istərsə də kiçiklikdə) ondan da üstün olanı məsəl çəkməkdən utanmaz. İman gətirənlər bilirlər ki, bu, onların Rəbbindən gələn haqdır. Küfr edənlər isə deyirlər: "Bu məsəllə Allah nə demək istədi?" Halbuki O bununla bir çoxlarını azdırır və bir çoxlarını da haqq yoluna yönəldir. Lakin O, bununla yalnız fasiqləri yoldan çıxarır. (Bəqərə surəsi, 26)**

İman gətirən bir kəs ayədə bəhs edilən ağcaqanad nümunəsinin, Uca Allahın yaratmasındakı üstünlüyün bir dəlili olaraq verildiyini dərhal başa düşər. Bu bir santimetrlik kiçik həşərat, Allahın qüsursuz və bənzərsiz yaratmasının bir nümunəsidir. Ən inkişaf etmiş texnoloji cihazlardan, kompyuterlərdən belə çox kompleks sistemlərə, mexanizmlərə və strukturlara malikdir. (Ətraflı məlumat üçün baxın. Sivrisinek Mucizesi, Harun Yahya) Yaradıldığından bəri heç dəyişmədən dövrümüzə qədər gəlib çatmışdır. Allah, bu möcüzəvi canlını Quranda Öz yaratmasının üstünlüyünə nümunə olaraq verir. Möminlər də bu nümunədən tək bir ağcaqanadın belə Allahın sonsuz elmini və gücünü hiss etməyə, düşünməyə açılan bir qapı olduğunu başa düşərlər. Ətraflarındakı hər varlığa eyni hikmət gözüylə baxmağı öyrənirlər. İnkar edən ağılsızlar isə ayənin ifadəsiylə, "bu məsəllə Allah nə demək istədi?" deyərək çaşıb qalarlar.

## Qurandakı təkrarları başa düşməmək

Quranda edilən təkrarlar da ağlını işlətməyən kəslərin hikmətini qavraya bilmədikləri mövzulardandır. Quranın müxtəlif yerlərində eyni və ya oxşar ayələrin və ya mövzuların təkrarlandığı görülər. Müxtəlif hekayələr, misallar, nəsihətlərlə birlikdə, Allahın varlığı, birliyi, təvəkkül, təslimiyyət, dünya həyatının keçiciliyi, Allahı zikr etmənin əhəmiyyəti, şükür, infaq kimi dinin əsas mövzularına tez-tez toxunular. Bəzən, bu mövzularla əlaqədar bir ayənin, sözbəsöz eynilə başqa bir yerdə olduğu belə görülər.

Bunun bir çox hikməti vardır. Tez-tez qeyd edilməli olan əhəmiyyətli mövzuların müxtəlif vəsilələrlə təkrarlanması, xatırladılması insanların zehinlərində, ürəklərində daha möhkəm yer tutmalarını, davamlı təsir etmələrini təmin edər. Həmçinin, bu həyati mövzuların bir-birindən fərqli nümunələr, hekayələr daxilində təkrarlanması da mövzuların hər cəhətiylə, hərtərəfli və dərinliyinə öyrənilməsinə yardımçı olar.

Qurandakı ayə təkrarlarının ən bariz nümunələrindən biri də Rəhman surəsindəki, **"Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız?"** ayəsidir. Bu ayə, 78 ayədən ibarət olan surədə, təxminən bir və ya iki ayə fasilə ilə tam olaraq 31 dəfə təkrarlanır. Allahın, cənnətdəki gözəllikləri çeşidlərkən, bunun çox böyük bir lütf və nemət olduğunu insanların haqqıyla idrak edə bilmələri, Allahın sonsuz neməti qarşısında qafil olmayıb lazım olan şükrü və təfəkkürü edə bilmələri baxımından bu olduqca hikmətli bir təkrardır. Hər təkrar ürəkdəki hörmət dolu heyranlığı və heybəti bir qat daha gücləndirər. Beləcə, səmimi və vicdanlı bir kimsənin ürəyinə verilmək istənən hiss ən mükəmməl bir şəkildə verilmiş olar.

## Quranın üslubunu başa düşməmək

Qurandakı hər ayə Allahın sonsuz hikmətinin bir təcəllisi olduğu üçün ehtiva etdiyi hər mövzu, mümkün qədər ən dərin və ən mükəmməl şəkildə təsvir edilir. Bəzi yerlərdə bir mövzu ən ətraflı və təfərrüatlı şəkildə izah edilmiş, bəzi yerlərdə isə ən aydın, qısa və sadə izahatdan istifadə edilmişdir. Məsələn, bəzi ayələrdə möminlərin, mələklərin və ya başqa üçüncü şəxslərin çatdırılan sözləri və ya duaları bəzən hər hansı bir girişdən istifadə edilmədən birbaşa verilir. İman edənlər də bu sözlərin çatdırılmasındakı hikməti görər və başa düşərlər.

Necə ki, Qurandakı bu üslub bəzi ağlını işlətməyən kəslərin başa düşməkdə çətinlik çəkdikləri bir üslubdur. Quran Allahın sözü olduğuna görə onda başqalarının sözlərinin yer almasını öz aləmlərində ziddiyyətli bir vəziyyət olduğunu fikirləşirlər. Halbuki, bütün bu sözlər möminlər üçün bir dərs, nümunə və ibrət xüsusiyyəti daşıyar. Quranda mövcud olan

bu ifadələri xəbər verən Allahdır. Bu səbəbdən hamısı Allahın sözüdür.

Məsələn, Quranın ilk surəsi olan Fatihə surəsinin son dörd ayəsi möminlərin duasıdır. Ayələr belədir:

**Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik.**

**Bizi doğru yola yönəlt**

**Nemət bəxş etdiyin şəxslərin yoluna**

**Qəzəbə uğramışların və azmışların yoluna yox! (Fatihə surəsi, 4-7)**

Beləliklə, Allah möminlərin edə biləcəkləri ən gözəl duanı birbaşa Quranın əvvəlində xəbər vermişdir. Bu duanın əvvəlində, "aşağıdakı kimi dua edin" şəklində və ya buna bənzər bir giriş yer almaz, çünki vəziyyət olduqca aydındır. Oxşar bir başqa nümunə Bəqərə surəsinin son ayəsindəki möminlərin duasıdır. Ayədə möminlərin Allaha belə dua etdikləri xəbər verilir:

**Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də yalnız öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!" (Bəqərə surəsi, 286)**

Ağıl sahibi hər insan bu ayələrdə Allahın möminlər üçün nümunə verdiyi bir dua forması bəyan etdiyini asanlıqla görər və başa düşər, ona görə də dua edər. Ağlını işlətməyən isə bu incəliyi görə bilməz və asanlıqla şeytanın təlqinlərinə tabe olmuş olar.

## Altı gündə yaradılış mövzusu

Quranın müxtəlif yerlərində kainatın 6 gündə yaradıldığı ifadə edilir. Təkcə bir yerdə, yaradılışın müxtəlif mərhələlərindən bəhs edilərkən bu mərhələlərlə əlaqədar bildirilən müstəqil müddətlərin cəminin 8 günü verdiyi diqqət çəkir. Bu ayələrdəki çox aydın bir məntiqi qavraya bilməyən ağılsız kəslər Quranın hər yerində yaradılışın 6 gündə baş verdiyinin ifadə edilməsi ilə buradakı ayələrdə bildirilən müddətlərin cəminin 8 günü verməsinin guya bir ziddiyyət olduğunu iddia edirlər. Ayələr belədir:

**De: “Doğrudanmı siz yeri iki gündə yaradana küfr edir və bütləri Ona tay tutursunuz? Axı O, aləmlərin Rəbbidir.**

**O, yerin üstündə möhkəm duran dağlar yerləşdirdi, onu bərəkətli etdi və ruzi istəyənlər üçün orada yer əhlinin ruzisini tam dörd gündə yerbəyer etdi.**

**Sonra O, tüstü halında olan göyə tərəf yönəlib ona və yerə: “Könüllü surətdə və ya məcburi olaraq gəlin əmrimə boyun əyin!” – dedi. Onlar: “Könüllü olaraq gəldik!” – dedilər.**

**O, iki gündə onları yeddi göy kimi yaratdı və hər göyə onun özünə məxsus vəzifə tapşırdı. Biz dünya səmasını qəndillərlə bəzədik və mühafizəmizə götürdük. Bu, Qüdrətli və Bilən Allahın əzəli hökmüdür. (Fussilət surəsi, 9-12)**

Yuxarıdakı ayələrdə bildirilən günlərin sayını toplasaq 8 gün alınar. Halbuki, Yunis surəsinin 3-cü ayəsində və digər başqa ayələrdə yerin, göylərin və ikisi arasındakıların 6 gündə yaradıldığı ifadə edilir. Bu vəziyyət, mövzuya heç ağlını işlətmədən, düşünmədən, diqqətini vermədən səthi bir şəkildə yaxınlaşan bir kimsə üçün başa düşülməz kimi görünə bilər. Onsuz da yuxarıdakı ayələr, öz zəif ağıllarına görə Qurana, nöqsan axtarmaq, ziddiyyət tapmaq məqsədiylə yaxınlaşan bir çox adamın ilk növbədə istifadə etdiyi ayələrdəndir.

Halbuki, haqqında danışılan ayələr diqqətli və hikmətli bir şəkildə oxunduqda heç bir ziddiyyət olmadığı görülər. Ayələrdə verilən vaxtlara diqqət edildiyində bu həqiqəti görərik:

- Yerin yaradılmağa başlanmasından, oradakı ruzilərin hazırlanmasına qədər yəni canlı həyatına uyğun mühitin meydana gəlib, bitkilərin və heyvanların yaradılmasına qədər keçən vaxt 4 gündür.

- Bu prosesin başlanğıcı olan, yerin bütün kainatla birlikdə meydana gəlməyə başlayıb əsas formasını alması, qısaca dünyanın yaradılması isə bu dörd günün ilk 2 gününü əhatə edir. Yəni bu iki gün ilk dörd gündən ayrı bir vaxt deyil, daha sonrakı ayədə ifadə edilən dörd günün ərzindəki ilk iki gündür.

- 11-ci və 12-ci ayələrdə isə formalaşmaqda olan göyün 2 gün ərzində təşkil olunduğu izah edilər. Nəticədə hamısı digər ayələrdə bildirilən 6 günə tamamlanır.

Qısaca ayə, bütün kainatın ümumi 6 günlük yaradılış prosesinin daxilindəki, iç-içə keçmiş mərhələlərin hər birinin müstəqil müddətlərini izah edir.

Burada qeyd olunması lazım olan əhəmiyyətli bir məqam ayələrdə keçən “gün” anlayışının bildiyimiz 24 saatlıq bir gün mənasında deyil, müxtəlif mərhələlər mənasında istifadə edilməsidir.

## “Haman” adı haqqındakı ağıldankənar fərziyyələr

Quranda öz aləmlərində ziddiyyət tapmağa cəhd edənlərin irəli sürdükləri iddialardan biri də, ayələrdə Fironun adamlarından biri olaraq keçən “Haman” haqqındadır.

Tövratda hz. Musanın həyatını izah edən hissədə, Hamanın adı heç keçmir. Lakin Haman adı İncildə hz. Musadan təxminən 1100 il sonra yaşamış və yəhudilərə zülm etmiş bir Babil kralının köməkçisi olaraq keçir.

Öz zəif ağıllarına görə Quranı Peyğəmbərimiz (s.ə.v)-in Tövrat və İncilə baxaraq yazdığını iddia edənlər, Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in bu kitablarda bəhs edilən bəzi mövzuları Qurana səhv köçürdüyü kimi bir cəfəngiyatı irəli sürürlər.

Halbuki, bu iddianın tamamilə əsassız olduğu Misir heroqlifinin bundan təxminən 200 il əvvəl açılıb, Köhnə Misir kitabələrində “Haman” adının tapılması ilə məlum olmuşdur.

O vaxta qədər Köhnə Misir dilində yazılmış kitabələr və yazıların oxunması mümkün deyildi. Köhnə Misir dili heroqlifləri və əsrlər ərzində bu dil varlığını davam etdirdi. Lakin II-III əsrlərdə xristianlığın yayılması və mədəni təsiriylə Misir, dinini olduğu kimi dilini də unutdu, yazılarda heroqlif istifadəsi azaldı və sona çatdı. Heroqlif yazısından istifadə olunduğu məlum olan ən son tarix 394-cü ilə aid bir kitabədir. Bundan sonra bu dil unuduldu və bu dildə yazılmış yazıları oxuya bilən və başa düşən heç kim qalmadı. Belə ki, bundan təxminən iki əsr əvvələ qədər...

Köhnə Misir heroqlifləri 1799-cu ildə, Rosetta Stone adı verilən eradan əvvəl 196 tarixinə aid bir kitabənin tapılmasıyla həll edildi. Bu lövhənin xüsusiyyəti üç müxtəlif yazı ilə belə ki, heroqlif, demotik (heroqliflərin əl yazısı forması) və Yunan dilləri ilə yazılmış olması idi. Yunan dilindəki mətnin köməyi ilə lövhədəki Köhnə Misir yazısı aydınlaşdırılmasına cəhd göstərildi. Lövhənin tam aydınlaşdırılması, Jean-François Champollion adlı bir fransız tərəfindən başa çatdırıldı. Beləcə unudulan bir dil və bu dilin izah etdiyi tarix aydınlanmış oldu. Beləliklə, Köhnə Misir sivilizasiyası, onların dinləri və ictimai həyatları haqqında bir çox şey öyrənildi.

Heroqlifin aydınlaşdırılması ilə mövzumuzu da maraqlandıran çox əhəmiyyətli bir məlumata daha çatılmış oldu: “Haman” adı həqiqətən də Misir kitabələrində keçirdi. Vyanadakı Hof muzeyində olan bir abidə üzərində bu addan danışılırdı. Eyni kitabədə Hamanın Firona olan yaxınlığı da qeyd olunurdu. *(Walter Wreszinski, Aegyptische Inschriften aus dem K.K. Hof Museum in Wien, 1906, J C Hinrichsche Buchhandlung)*

Bütün kitabələrə əsaslanaraq hazırlanan, *Yeni Krallıqdakı Kişilər* lüğətində isə Hamandan “Karxanalarda işləyənlərin başçısı” olaraq bəhs edilir. *(Hermann Ranke, Die Ägyptischen Personennamen, Verzeichnis der Namen, Verlag Von J J Augustin in Glückstadt, Band I,1935, Band II, 1952)*

Həqiqətən də məlum olan nəticə möcüzəvi bir həqiqəti ifadə edir. Haman Qurana qarşı çıxanların əksinə, Quranda bildirildiyi kimi hz. Musanın dövründə Misirdə yaşayan bir adamdır və Quranda bəhs edildiyi kimi Firona yaxın və tikinti işləriylə məşğuldur.

Necə ki, Quranda, Fironun qüllə tikmə işini Hamandan istəməsini xəbər verən ayə də bu arxeoloji tapıntılarla tam bir uyğunluq təşkil edir:

**Firon dedi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir məbud tanımıram. Ey Haman! Mənim üçün palçığın üzərində od qala və bir qüllə düzəlt ki, Musanın məbudunun yanına qalxım. Mən, həqiqətən də, onu yalançılardan hesab edirəm. (Qəsas surəsi, 38)**

Nəticədə, Köhnə Misir abidələrində Hamanın adının aşkarlanması Quran əleyhində bəzi ağıldankənar iddialar gətirənlərin bir iddiasını da puç etməklə bərabər Quranın həqiqətən Allah Qatından göndərildiyini yenə də təsdiq edir. Çünki Quran Peyğəmbərimiz (s.ə.v)-in dövründə çatdırılması və həll edilməsi mümkün olmayan bir tarixi məlumatı möcüzəvi şəkildə bizə çatdırır.

## Nuh tufanı haqqındakı ağıldankənar fərziyyələr

Quranda izah edilən Nuh tufanı da inkar edənlərin ağılsız olduqlarını və dolayısı ilə qəbul etmədikləri mövzular arasındadır. Nuh tufanının baş verdiyini inkar edənlər bu iddialarına dəlil olaraq dünya səviyyəsində bir tufanın reallaşmasının texniki olaraq qeyri-mümkün olduğunu deyirlər. Buna əsaslanaraq, belə bir hadisəni təsdiqləyən Quranın Allahın sözü ola bilməyəcəyini iddia edirlər.

Halbuki bu iddia, Allahın endirdiyi və təhrif edilməmiş tək müqəddəs kitab olan Qurani Kərim üçün məqbul deyildir. Çünki Quranda tufan hadisəsi Tövratda və müxtəlif mədəniyyətlərdə keçən tufan rəvayətlərindən olduqca müxtəlif bir şəkildə xəbər verilir.

Təhrif edilmiş olan Tövratda bu tufanın dünya miqyasında olduğu və bütün dünyanı əhatə etdiyi deyilər. Halbuki, Quranda tufanın beynəlxalq miqyasda olduğu şəklində bir ifadə yoxdur. Əksinə, əlaqədar ayələrdən tufanın regional olduğu və bütün dünyanı deyil, təkcə hz. Nuhu yalançı hesab edən qövmün cəzalandırıldığı aydın olur.

Eynilə Ad qövmünə göndərilən hz. Hud (Hud surəsi, 50) və ya Səmud qövmünə göndərilən hz. Saleh (Hud surəsi, 61) və digər peyğəmbərlər kimi hz. Nuh da yalnız öz qövmünə göndərilmişdir və tufan da hz. Nuhun qövmünü həlak etmişdir:

**Biz Nuhu öz xalqına elçi göndərdik. O dedi: "Həqiqətən, mən sizin üçün açıq-aydın**

**xəbərdar edən bir elçiyəm. Allahdan başqasına ibadət etməyin! Mən sizi yaxalayacaq məşəqqət gününün əzabından qorxuram". (Hud surəsi, 25-26)**

Həlak olanlar hz. Nuhun təbliğini heçə sayan və üsyanda inadkarlıq göstərən qövmdür. Bu mövzudakı ayələr heç bir müzakirəyə yer verməyəcək qədər aydındır:

**Kafirlər onu yalançı hesab etdilər. Biz onu və onunla birlikdə gəmidə olanları xilas etdik. Ayələrimizi yalan hesab edənləri isə suya qərq etdik. Doğrudan da, onlar kor adamlar idilər. (Əraf surəsi, 64)**

**Biz onu və onunla birlikdə olanları Öz mərhəmətimizlə xilas etdik. Ayələrimizi yalan hesab edənlərin isə kökünü kəsdik. Onlar iman gətirən deyildilər. (Əraf surəsi, 72)**

Göründüyü kimi Quranda bütün dünyanın deyil, təkcə Nuh qövmünün həlak edildiyi bildirilir. Ayələr bu qədər aydın olduğu halda hələ Quranda Nuh tufanının qlobal miqyasda olaraq çatdırıldığını iddia etmənin cahil seqmentləri aldatmağa, onların ağlını qarışdırmağa cəhd etməkdən başqa məqsədi yoxdur.

Təhrif edilmiş Tövrat və İncildəki məntiqsizliklərin, xurafatların heç birinin Quranda olmaması, hətta bunların düzəldilmiş həqiqi hallarının köçürülməsi də Quranın tamamilə Allah Qatından göndərilən bir kitab olduğunu bir daha sübut edir.

Quranda Tufan hadisəsindən qlobal miqyasda olaraq bəhs edilməsi digər bir baxımdan da mümkün deyildir. Çünki Allah, hər hansı bir qövmə elçi göndərilmədiyi təqdirdə, o qövmün həlak edilməyəcəyini deyir. Həlak üçün, qövmün özünə xəbərdarlıq edib qorxudan birinin gəlmiş olması və bu xəbərdarlıq edənin təkzib edilmiş olması lazımdır. Allah Qəsas surəsində belə buyurur:

**Sənin Rəbbin şəhərlərdən ən mühüm olanına, özlərinə ayələrimizi oxuyan bir elçi göndərməmiş o şəhərləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan şəhərləri məhv etdik. (Qəsas surəsi, 59)**

Yenə başqa bir ayədə isə "**Kim doğru yolla getsə, xeyri onun özünə olar, kim azğınlığa düşsə, ziyanı da onun öz əleyhinə olar. Heç bir günahkar başqasının günahını daşımaz. Biz elçi göndərməmiş heç kəsə əzab vermirdik.**" (İsra surəsi, 15) deyə buyrulur.

Ayələrdən aydın olduğu kimi özünə xəbərdarlıq edən göndərilmədən bir qövmün

həlak edilməsi, Allahın qanununa ziddir. Bir xəbərdarlıq edən hz. Nuh isə yalnız öz qövmünə göndərilmişdir. Buna görə də Allah, xəbərdarlıq edən biri göndərilməmiş qövmləri deyil, yalnız hz. Nuhun qövmünü həlak etmişdir.

Tufan haqqındakı bir başqa mövzu isə, suların ərazidəki bütün yüksəklikləri, dağları örtəcək qədər hündürlüyə qalxıb qalxmadığı mövzusudur. Məlum olduğu kimi Quranda, gəminin tufandan sonra “Cudi”yə oturduğu bildirilir. “Cudi” sözü bəzən xüsusi bir dağ adı olaraq qəbul edilir, halbuki söz ərəbcədə “hündür yer, təpə” mənasını verir. Həmçinin, “Cudi” sözünün bu mənasından, suların ancaq müəyyən bir hündürlüyə çatdığı, qurunu tamamilə əhatə etmədiyi aydın olur. Yəni tufanı təhrif olunmuş Tövratda və digər əfsanələrdə izah edildiyi kimi bütün yer üzünü və yer üzündəki bütün dağları örtmədiyini, yalnız müəyyən bir bölgəni örtmüş olduğunu Qurandan öyrənirik.

Həmçinin, tufanın reallaşdığı düşünülən arxeoloji bölgədə edilən qazıntılar da, tufanın bütün dünyanı əhatə edən qlobal bir hadisə deyil, Mesopotamiyanın bir hissəsini təsiri altına alan olan çox geniş bir fəlakət olduğunu göstərir. (Ətraflı məlumat üçün yazıçının, “Qövmlərin həlakı” adlı kitabına müraciət edilə bilərsiniz.)

# SON SÖZ

Bu kitabda Quranı başa düşməməyin və səhv başa düşməyin əsas səbəblərini təyin etdik. İmandan uzaq kəslərin Qurandakı müxtəlif mövzularla əlaqədar iddia etdikləri ağılsız etirazlardan, etdikləri axmaq şərhlərdən bəzi nümunələri misal göstərdik. Buradakı məqsədimiz, bu etirazların cavablarını verməklə bərabər əsl olaraq, imandan və səmimiyyətdən uzaq kəslərin necə ən sadə mövzuları belə başa düşməyəcək, idrak edə bilməyəcək hala düşdüklərini gözlər önünə sərmək idi.

Bunu unutmamaq lazımdır ki, ağılsız bir kimsənin İslam və Quran haqqında düşəcəyi təzadların, ziddiyyətlərin sonu yoxdur. Çünki Quran, səmimiyyət və onun gətirdiyi ağıl ilə aydın olacaq bir üslubda endirilmişdir, yəni Quranı başa düşməkdəki meyar səmimiyyət və ağıldır. Buna görə də ağıldan məhrum bir kimsənin Quran haqqında etdiyi şərhlərin, etirazların cəfəngliyinə təəccüblənmək mənasızdır.

Mömin qarşısındakından da özü kimi bir ağıl və anlayış gözlədiyindən olduqca ağılsız və məntiqsiz şərhlər qarşısında təbii ki, təəccüb edə bilər. Lakin Allah Quranda bizə iman gətirməyənlərin ağıl və anlayış mövzusunda bir payı olmadığını bildirmişdir. Buna görə də Qurana uyğun olaraq baxdıqda iman gətirməyənlərin ağılsız şərhləri təəccüb ediləcək bir mövzu olmaz, bir ibrət mövzusu, bir iman həqiqəti halına çevrilər.

Quran Allahın haqq kitabıdır və açıq-aşkardır. Heç bir sayıqlama ilə, boş sözlə Qurana qarşı şübhə oyatmaq mümkün deyildir. İnkar edənlər bu sayıqlamalar ilə ancaq özlərini və özləri kimi olanları aldadar, vicdanlarının səsinə qulaq asmazlar.

Mömin Quranın həqiqətlərini və möcüzələrini insanlara izah etməklə mükəlləfdir. Haqq gəldiyində batil onsuz da yox olmağa məhkumdur. Quranda bu həqiqət, **"Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza!"** (Ənbiya surəsi, 18) ayəsi ilə xəbər verilir.

Necə ki, batilin aqibəti yox olmaqdan başqa bir şey deyildir:

**De: "Haqq gəldi, batil puç olub getdi. Həqiqətən də, batil puçluğa məhkumdur!" Biz Quranda möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik. Bu ayələr zalımların ancaq ziyanını artırır. (İsra surəsi, 81-82)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas

iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui

Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. ("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". (Jeffrey Bada, Earth,

Şubat 1998, səh. 40)

Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.
- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.
- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.
- Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: “Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”, - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət

bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil

araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. (J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)

Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın

təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər

də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu

aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan

yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər.

Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və

məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)

... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların

uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!

Həqiqətən, Sən bilənsən, müdriksən!

(Bəqərə surəsi, 32)